www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13-15 iyul 2019-cu il Şənbə № 147 (7317) Qiymәti 60 qəpik

**Xəbər**

## Dələduzluq edən salyanlı "türk iş adamı" tutuldu

yazısı səh.15-də

**Gündəm**

### Avropa Birliyi Cənubi Qafqazda fəallaşmağa çalışır



**Həsən Oktay:** "Avropa Azərbaycanın ən çox gündəmdə saxladığı Qarabağ münaqişəsi üzərindən hərəkətliliyini artıraraq bölgəyə daxil olmaq istəyir"

yazısı səh.12-də

### Qərb mediası və təşkilatları hakimiyyətlə barışıbmı - rəylər

yazısı səh.9-da

### BNA-dan Masallıdakı "yol qətliamı" ilə bağlı ittihamlara reaksiya

yazısı səh.10-da

### Hikmət Hacıyevdən Britaniyada erməni nümayəndəsinin təxribatçı sualına tutarlı cavab

yazısı səh.3-də

### Azərbaycanın aqrar məhsullarını Rusiya sərhədindən geri qaytaran səbəblər

yazısı səh.10-da

### Həlli uzanan Qarabağ konflikti işğalçını yeni problemlərə tuş edib

yazısı səh.11-də

### Milli Məclis növbədənkənar sessiyanı başa vurub tətilə getdi

yazısı səh.6-da

### Fazil Məmmədovu bu dəfə Almaniyaya apardılar

yazısı səh.5-də

### Tanınmış vəkillə kollegiya arasındakı problem çözüldü

yazısı səh.4-də

### Babacanın Ərdoğan yolu getmək şansı azdır

yazısı səh.9-da

### Gürcüstandakı aksiyalarda azərbaycanlılar da iştirak edir

yazısı səh.12-də

# KREML İRƏVANA AĞIR ŞƏRT QOYDU - "CÜCƏLƏR PAYIZDA SAYILACAQ..."

Moskva Ermənistana pressinqi artırır; Paşinyanın Ruhaniyə qəfil zəngini zəruri edən səbəblər; işğalçı ölkə böhran zolağında; amerikalı dünyaca məşhur iqtisadçı İrəvana gəlməkdən niyə imtina etdi - motiv...



yazısı səh.8-də

## Eldar Mahmudovun "kompromat sandığı" yenidən gündəmdə

**Əvəz Zeynallı:** "Onun xaricdə əlaltıları çoxdur və bu şəxslərə material ötürə bilər"

yazısı səh.5-də



*Başçı müavini Qərib Məmmədov:*

### "Qara Qarayev prospektindəki yanğınların çoxu qısaqapanmadan baş verib"

yazısı səh.4-də



Elton Məmmədov

### "Biz əfəndi nəsliyik..." - Ziya Məmmədovun qardaşı "Yeni Müsavat"a ilginc açıqlamalar verdi

yazısı səh.7-də



### Rauf Arifoğlu prezident İlham Əliyev tərəfindən medalla təltif olunub

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 147 (7317) 13 iyul 2019



## Vilayət Eyvazov Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinə rəis təyin etdi

**Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin (BMCMİ) rəisi vəzifəsinə təyinat olub.**

"Report"un xəbərinə görə, bununla bağlı Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb. Bu vəzifəyə Nəsimi rayon Polis İdarəsinin rəisi, polkovnik Əbülfət Rzayev təyin edilib.

Daxili İşlər Nazirliyi Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov faktı "Report"a təsdiqləyib.

Qeyd edək ki, bu təyinatla bağlı ilk xəbəri strateq.az saytı yayıb.

## Aİ Azərbaycanın ən iri investorudur

**Avropa İttifaqı (Aİ) Azərbaycanın neft və qeyri-neft sektorlarında ən iri investordur.**

Trend-in məlumatına görə, bu barədə Aİ-nin materiallarında deyilir.

Qeyd olunur ki, Aİ ticarət sahəsində Azərbaycanın ən iri tərəfdaşıdır: "2018-ci ildə Aİ-nin Azərbaycanın ticarətində payı 41,7 faiz təşkil edib. Aİ Azərbaycan üçün ən iri ixrac (54,3 faiz) və idxal (20,3 faiz) bazarıdır".

Aİ-nin Azərbaycandakı biznes mühiti ilə bağlı beş prioritet islahatı arasında vergi, gömrük, təhsil, hüquq və maliyyə sahələrində şəffaflığın və sabitliyin təmin olunması yer alıb.

## Rusiyaya qarşı "cəhənnəm" sanksiyaları Konqresdən keçdi

**ABŞ Konqresinin Nümayəndələr palatası iyulun 11-də Rusiyaya qarşı "cəhənnəm" sanksiyalarını təsdiqləyib. Virtualaz.org xəbər verir ki, bu sanksiyalara əsasən Rusiyanın suveren borcu üzrə əməliyyatların aparılmasına qadağa qoyulur. Sanksiyalar Rusiyanın Amerika seçkilərinə müdaxiləsinə cavabdır.**

Konqresmenlər Bred Şerman və Maksin Uoters tərəfindən 2020-ci il üçün müdafiə büdcəsinə və maliyyə ilinə dair qanuna təklif edilmiş düzəliş Rusiyanın suveren borcları ilə əməliyyatların aparılmasını tam qadağan edir. Düzəlişə əsasən bu qadağa ancaq o halda ləğv edilə bilər ki, Rusiya Amerika seçkilərinə bir daha müdaxilə etməsin və Konqres bu qənaətə gəlsin.

"Bizə Rusiyanı ötən seçkilərə müdaxiləyə görə cəzalandırmaq üçün ciddi mexanizm lazımdır ki, bir də sonrakı seçkilərə müdaxilə etməsin",-konqresmen Şerman bildirib.

Lakin həmin düzəlişin əlavə olunduğu müdafiə büdcəsi hələ təsdiqlənməlidir. Əgər qanun layihəsi Konqresin aşağı palatasından keçsə növbəti mərhələdə hər iki palata tərəfindən razılaşdırılmalı, imzalanmaq üçün prezident Donald Trampa təqdim olunmalıdır.

Ağ evdən yayılmış bəyanatda isə deyilir ki, Tramp 2020-ci il üçün müdafiə büdcəsinə veto qoya bilər. Çünki administrasiya demokratlar tərəfindən nəzarət olunan Nümayəndələr palatasının Pentaqona Ağ evin tələb etdiyi kimi 750 milyard dollar deyil, 733 milyard dollar nəzərdə tutmasından narazıdır.

## Gələn ildən fermerlərə subsidiya verilməsi mexanizmində insan amili olmayacaq

**"Azərbaycanda fermerlərə subsidiya verilməsi ilə bağlı mexanizmi insan amili olmadan formalaşdırmaq istəyirik".**

Musavat.com bildirir ki, bu barədə **kənd təsərrüfatı nazirinin müavini İlham Quliyev** jurnalistlərə açıqlamasında deyib. Nazir müavini qeyd edib ki, hazırda yeni mexanizm üzərində iş gedir:

"Məqsədimiz bu işi şəffaf və elektron qaydada təşkil etməkdir. Belə olan halda artıq komissiyaya ehtiyac olmayacaq. 1 yanvar tarixindən bütün proqramlar elektron vasitəsi ilə icra olunacaq, heç bir insan amili olmayacaq".

❑ **Xalidə GƏRAY**
**Musavat.com**

# "ABŞ indiyədək Azərbaycana heç bir silah satmayıb" - Müdafiə Nazirliyi

**Müdafiə Nazirliyi ABŞ Konqresinin Nümayəndələr palatasının konqresmeni Bred Şermanın Azərbaycana "Dağlıq Qarabağ hava məkanında mülki təyyarələri təhdid edə biləcək" ABŞ silahlarının satılmasına qadağa qoyulması məqsədilə qanunvericilik təşəbbüsü ilə çıxış etməsi məsələsinə münasibət bildirib.**



Müdafiə Nazirliyindən "Report"a daxil olan məlumatda bildirilir ki, bu cür təşəbbüslə çıxış, əslində, təəccüblü görünür: "Çünki ABŞ indiyədək ölkəmizə heç bir silah satmayıb. Bununla belə, Azərbaycan dünyanın qabaqcıl hərbi texnologiyalarına malik ölkələrdən kifayət qədər silah və döyüş vasitələri alır".

"Hərbi Hava Qüvvələrimizin silahlanmasına daxil edilən müxtəlif tipli hava hücumundan müdafiə vasitələri hava məkanımızı tam qorumağa və təhdid yaranarsa dərhal cavab tədbirləri görməyə qadirdir. Bundan əlavə, konqresmenə yəqin bəlli olmalıdır ki, Dağlıq Qarabağ Azərbaycan ərazisidir və münaqişə bölgəsi olduğundan Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) tərəfindən mülki aviasiya vasitələrinin bu istiqamətdə uçuşlarına uzun müddətdir tam qadağa qoyulub", - deyə məlumatda vurğulanıb.

## Azərbaycanda məhkəmə sədri və iki hakim işdən çıxarılıb

**Azərbaycanda bir neçə hakim cəzalandırılıb. APA-nın məlumatına görə, Məhkəmə Hüquq Şurasının bu gün keçirilən iclasında qanunvericiliyin tələblərinin kobudcasına pozulmasına və korrupsiyaya şərait yaradan hallara, süründürməçiliyə və digər pozuntulara yol verdiklərinə görə bir sıra hakimlər intizam məsuliyyətinə cəlb edilib.**

Bundan başqa, Gəncə İnzibati-iqtisadi məhkəməsinin sədri Natiq Abbasovun və hakimi Kamil Rzayevin, Göygöl rayon məhkəməsinin hakimi Rafiq Məmmədovun tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi barədə qərarlar qəbul edilib.

## Eldar Əzizov keçmiş müavininə vəzifə verdi

**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov keçmiş müavininə yeni vəzifə verib.**

"Unikal.org" xəbər verir ki, bir müddət öncə Eldar Əzizovun əmri ilə Şahmalı Cavadov Bakı Lift Təmir İstehsalat Birliyi Baş direktorunun müavini təyin edilib.

Təyinat xəbərini Bakı Lift Təmir İstehsalat Birliyindən təsdiqləyiblər.

Qeyd edək ki, Eldar Əzizov Gəncə Şəhər İcra Hakimiyyəti başçısı olarkən, Ş.Cavadov şəhər təsərrüfatı üzrə onun müavini olub.

Həmçinin Qüdrət Şükürov Bakı Lift İdarəsinin baş direktoru vəzifəsini icra edərkən öz müavini Ruslan Eyvaz oğlu Dilanovu işdən çıxarmışdı. O vaxtdan həmin vəzifə vakant idi.

## Təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul üzrə müsabiqəsi başlayır

**İyulun 13-dən dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul üzrə müsabiqəyə start verilir.**

Təhsil Nazirliyindən Trend-ə verilən məlumata görə, bu proses iyulun 19-dək davam edəcək. Müsabiqədə iştirak etmək istəyən namizədlər miq.edu.az/direktorlar linkinə daxil olaraq qeydiyyatdan keçəcəklər.

Müsabiqəyə 500-ə yaxın vakant yer çıxarılıb.

Müsabiqədə pedaqoji və ya idarəetmə ixtisas sahələri üzrə ali təhsili, 5 ildən az olmayaraq (təhsilin təşkili və idarə olunması ixtisası üzrə elmi dərəcəsi və elmi adı olduqda 3 il) pedaqoji stajı olan və hazırda ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan şəxslər iştirak edə bilərlər.

Direktor vəzifəsinə işə qəbul üzrə müsabiqə dörd mərhələdən (elektron ərizələrin qəbulu, test imtahanı, müsahibə və vakant yerlərə yerləşdirilmə) ibarətdir.

"Dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul və çalışmanın yaş həddinə çatmış direktorlarla əmək münasibətlərinin tənzimlənməsi Qaydaları"na edilmiş dəyişikliyə əsasən, müsabiqədə keçid balı namizədlərin test imtahanında göstərdiyi nəticələr və vakansiyaların sayı nəzərə alınmaqla müəyyən ediləcək.



Ceyhun Bayramov

## "Bu il daha çox vakant müəllim yerinin olacağı gözlənilir" - nazir

**Bu il orta məktəblərdə ötən ildəkindən daha çox sayda vakant müəllim yerinin elan olunacağı gözlənilir. Trend-in məlumatına görə, bunu Təhsil naziri Ceyhun Bayramov deyib.**

Onun sözlərinə görə, iyulun 8-dən başlayaraq Azərbaycanda mərkəzləşmiş qaydada müəllimlərin işə qəbulu imtahanı keçirilir:

"Bu il elektron ərizələrini qeydiyyatdan keçirən müəllimlərin sayı 56 mindən çox olub. Bu, əvvəlki illərlə müqayisədə rekord göstəricidir. Test imtahanlarının iyulun 24-nə qədər keçiriləcəyi nəzərdə tutulur. İmtahanlarda hər gün orta hesabla 3200-ə yaxın müəllim iştirak edir".

**C.Bayramov əlavə edib ki, hazırda bütün ölkə üzrə orta məktəblərdə vakant yerlərin sayı dəqiqləşdirilir:** "Yaxın zamanlarda bütün vakant yerlər elan ediləcək. Düşünürük ki, bu il ötən ildəkindən daha çox sayda vakant yer elan olunacaq. Namizədlərin sayını və rəqabətliliyini nəzərə alaraq gözləntimiz ondan ibarətdir ki, vakant yerlər 100 faiz tutulacaq. Çünki son illərdə Təhsilin İnkişafı üzrə Strategiyaya uyğun aparılan kompleks tədbirlər nəticəsində çox müsbət dinamika müşahidə olunur və müəllimlik rəqabətli peşəyə çevrilib".

## Dərslər sentyabrın 15-də başlayıb iyunun 14-də başa çatacaq - əmr

**Təhsil naziri Ceyhun Bayramov ümumtəhsil məktəblərinin 2019-2020-ci dərs ilinə aid tədris planlarının təsdiq edilməsi haqqında əmr imzalayıb. APA-nın xəbərinə görə, əmrə əsasən, 2019-2020-ci dərs ilində ümumtəhsil məktəbində dərs məşğələləri sentyabrın 15-də başlayıb iyunun 14-də başa çatacaq.**

Əmrə müvafiq olaraq, dərs ili iki yarımilə bölünür: birinci yarımil - 15 sentyabr - 26 yanvar; ikinci yarımil - 1 fevral - 14 iyun.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**





# Rauf Arifoğlu prezident İlham Əliyev tərəfindən medalla təltif olunub

**Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı medalla təltif olunmuş bir qrup media, qeyri-hökumət təşkilatları nümayəndələri və ictimai xadimlərə medalların təqdim olunma mərasimi keçirilib.**

Musavat.com APA-ya istinadən məlumat verir ki, medalları Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov təqdim edib.





AZƏRBAYCAN RESPUBLİKASI
YUBİLEY MEDALININ VƏSİQƏSİ
№ I-006
Azərbaycan Respublikası Prezidentinin
2019-cu il 27 may tarixli
1205 nömrəli Sərəncamı ilə

Abbasov
Rauf
Arif oğlu
"Azərbaycan Xalq Cümhuriyyətinin
100 illiyi (1918-2018)"
yubiley medalı
İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Medalla təltif olunanlar arasında Məhəmməd Əmin Rəsulzadənin varisi Rəis Rəsulzadə, AXC qurucularının varislərindən Leyla Abasquliyeva, Xurşud Abdullayeva, Solmaz Şıxlınskaya da var.

Musavat.com xəbər verir ki, Yeni Müsavat Media Qrupunun rəhbəri Rauf Arifoğlu da Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, yubiley medalı ilə təltif edilib.

❑ **Musavat.com**

# Hikmət Hacıyevdən Britaniyada erməni nümayəndəsinin təxribatçı sualına tutarlı cavab



**Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Böyük Britaniyanın Royal Beynəlxalq Münasibətlər İnstitutu - "Chatham House" mərkəzində Azərbaycanın xarici siyasət prioritetləri mövzusunda çıxış edib.**

"Report" xəbər verir ki, tədbirdə Qafqaz üzrə ekspertlərdən olan Tomas de Vall və digərləri iştirak ediblər.

Tədbirdə H.Hacıyev Azərbaycanın xarici siyasətinin təməl prinsipləri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın regionda aparıcı rolu, inkişafı və həyata keçirdiyi mühüm layihələr barədə danışıb.

O, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın regional liderliyi və uğurlu inkişafı, ölkədə aparılan köklü islahatlar barədə danışıb.

H.Hacıyev Ermənistanın qeyri-konstruktiv mövqeyi və işğal olunmuş ərazilərdə qeyri qanuni fəaliyyətləri, təmas xəttində vəziyyəti gərginləşdirməsi barədə ətraflı danışıb.

İki saata qədər davam edən müzakirələrdə PA rəsmisi auditoriyanın çoxsaylı suallarını cavablandırıb.

Tədbirdə iştirak edən erməni nümayəndəsinin də təxribatçı sualları cavablandırılıb.

Qeyd edək ki, "Chatham House" beynəlxalq münasibətlər sahəsində dünyanın aparıcı mərkəzlərindən biridir. Beynəlxalq ictimai siyasi fikrə ciddi təsiri var.

# "Heydər Əliyevin zəngin irsi hələ uzun illər tədqiq ediləcək" - Rektor Ədalət Muradov

## UNEC-də "Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası" adlı monoqrafiyanın təqdimatı keçirilib








**UNEC-də Azərbaycan Dövlət İqtisad Universitetinin professorları tərəfindən hazırlanan və Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsinin 50-ci və anadan olmasının 96-cı ildönümünə həsr olunan "Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası" adlı monoqrafiyanın Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi ilə birgə təqdimatı keçirilib.**

UNEC-in professorları tərəfindən hazırlanan monoqrafiyada Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyasının mahiyyəti, ümumi və xarakterik cəhətləri, prioritetlərinin sistemli şəkildə təhlil olunub. Monoqrafiya müasir Azərbaycanın davamlı və dinamik sosial-iqtisadi inkişafının mənbələrini, hərəkətverici qüvvələrini daha dərindən və aydın dərk etməyə imkan verir.

Monoqrafiyanın təqdimatında **UNEC-in rektoru, professor Ədalət Muradov** və universitetin professor-müəllim heyəti ilə yanaşı, millət vəkilləri, dövlət rəsmiləri və digər qonaqlar iştirak ediblər.

Rektor Ədalət Muradov monoqrafiyanın əhəmiyyətindən söz açaraq, ümummilli lider Heydər Əliyevin zəngin irsinin hələ uzun illər tədqiq ediləcəyini vurğulayıb. Ulu öndərin irisinin öyrənilməsi və gələcək nəsillərə ötürülməsi missiyasını UNEC-in öz üzərinə götürdüyünü bildirib. Müstəqillik illərində ölkəmizdə sosial-iqtisadi inkişaf strategiyası sahəsində əldə olunan uğurların məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirən Ə.Muradov, bu gün də həmin strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Ümummilli lider Heydər Əliyevin Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyində qarşıya qoyduğu vəzifələrdən söz açan rektor, ulu öndərin tövsiyələrinin UNEC-in inkişaf strategiyasının prioritet istiqamətləri kimi müəyyən olunduğunu qeyd edib. UNEC-in 90 illik yubileyində ulu öndərin verdiyi tapşırıqlara və bu tapşırıqların icrasına həsr olunan yeni kitabın hazırlanacağını deyib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan iqtisadiyyatının inkişafındakı tarixi xidmətlərindən söz açıb. UNEC professorlarının hazırladığı dəyərli monoqrafiyada ulu öndərin iqtisadi inkişaf strategiyasının bütün məqamlarının dərin təhlil olunduğunu bildirib.

**AMEA-nın müxbir üzvü, İqtisadiyyat İnstitutunun şöbə müdiri, professor Akif Musayev** Heydər Əliyevin müasir Azərbaycanın sosial-iqtisadi inkişafı, maliyyə institutlarının formalaşdırılması, ölkəmizdə tədris-təlim texnologiyalarının tətbiqi, xalq təsərrüfatının müxtəlif sahələrində və funksional bölmələrində iqtisadi islahatların aparılması, əhalinin sosial müdafiəsi, optimal vergi siyasəti, xarici iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində gördüyü işlərdən danışıb. Monoqrafiyada ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyasını əks etdirən və mühüm faktlara əsaslanan məqalələrin yer aldığını vurğulayıb.

Tədbirdə **AMEA-nın müşaviri, akademik Əli Abbasov** monoqrafiyada iqtisadiyyatın bütün sahələri ilə yanaşı, bilik və informasiya resurslarına əsaslanan yeni iqtisadiyyatın qurulması barədə məqalələrin yer aldığını, həmçinin çox mühüm nəticələr əldə olunduğunu qeyd edib. Akademik monoqrafiyanı ulu öndər Heydər Əliyevin sosial iqtisadi siyasətinə verilən qiymət kimi dəyərləndirib.

**Tədbirdə çıxış edən millət vəkilləri Vahid Əhmədov, Rüfət Quliyev, UNEC-in professoru Arif Şəkərəliyev ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının əhəmiyyətindən danışıblar. UNEC alimlərinin hazırladığı monoqrafiyanın bu strategiyanın təbliğ olunması istiqamətində dəyərli töhfə olacağını deyiblər.**

Yeni Müsavat
N 147 (7317) 13 iyul 2019



# Məsələ medalda deyil, diqqətdə olmaqdır

Samir SARI

**Orta məktəbin yuxarı siniflərində oxuyanda mənə bir qramota (fəxri fərman) vermişdilər, çox sevinmişdim. Adı nəyə desən, dəyərdi, möhtəşəm səslənirdi: "Poçetnaya qramota".**

Bu mükafatı mənə ictimai işlərdə fəallıq göstərdiyimə görə vermişdilər, mən də gətirib servantın ən gözəgəlimli yerinə qoymuşdum. Sonradan bir-ikisini də verdilər, onları da gətirdim, birinci fəxri fərmanla yanaşı qoyanda hiss elədim ki, adi karton kağızıdır. Bundan adamda lap bir çuval olsun, nəyə yarayır ki...

Ona qalsa, qurultay nümayəndəsi, rayon sovetinin deputatı olan atamın bir yeşik orden-medalı vardı, sonradan qaçaqaçda it-bata düşdü. Heç demə, o medallardan yalnız birinin maddi dəyəri varmış - 15-20 qram xalis qızıldan ibarətmiş. Bunu mənə sonradan qəzetlərdə "orden-medal alıram" elan verən bir nəfər dedi. O adam bürüncdən və başqa metallardan olan medallara yaxın durmurdu, çalışırdı ki, "Lenin" ordeni, "Qızıl ulduz" medalı tapsın, ucuz qiymətə alsın.

Deyilənə görə, "Lenin" ordeni bir unsiya (33 qram civarında) qızıldan ibarətdir, o vaxtlar 300 dollar qiyməti vardı, alverçilər isə orden yiyələrini tovlayıb 50 dollara-filana almaq istəyirdilər.

Heç bir maddi, mənəvi, siyasi dəyəri olmayan medallar isə N qədər idi. Kəndimizin müharibə və əmək veteranlarına ildə bir xaral medal verirdilər. Sinəsinə taxıb gəzənlər də vardı, gətirib yeşiyə atanlar da. Bəziləri açıq-açığına deyirdilər: "Bu sovet hökuməti də dəmir-dümürlə başımızı aldadır. Bundansa 100 manat pul versin, bir toğlu alaq, kəsib yeyək".

Bununla belə, onların hamısı sayılıb-seçilmələrinə, medalla təltif olunmalarına görə məmnun idi. Əlbəttə, o medalın üstündə onların hərəsinə bir toğlu pulu versəydilər, daha məmnun olardılar, amma sovet hökumətində dəmir çox idi, tükənən şey deyildi, xırda-buynuzlu heyvanların baş sayı isə tükənə bilərdi. Ona görə də hökumət gücü metala, medala verirdi.

Yox, elə çıxmasın ki, insanlara orden-medal, döş nişanı vermək ənənəsi yalnız SSRİ-də olub. Elə deyil. Fərqlənənlərin, seçilənlərin orden-medalla təltif olunması ənənəsi ABŞ-da da var, İngiltərədə də, Fransada da, Çində də.

Hətta Çində daha geniş yayılıb. Tez-tez internetdə Çin generallarının orden-medallı şəkilləri paylaşılır. Adamın birinin kitelinin yaxası xirtədiyndən toqqa çəkilən yerinə qədər başdan-başa orden-medaldır. Barmaq basmağa yer yoxdur. Zirehli jilet kimi bütün sinəsini tutur. Güllə atsan, generala sədəmə toxunmaz. O qalınlıqda dəmiri hansı güllə deşər?

Yazıq general ağırlığı ən azı 10 kilo olan orden-medallı kitelini geyinib parada gedəndə nə zülüm çəkir, bir özü bilir.

Bu baxımdan çox medal həvəskarı olmaq da bir şey deyil, bir-iki dənə bəsdir.

Bu günlərdə bir xeyli həmvətənimiz "Cümhuriyyət" medalı ilə təltif olunub, içində bu mükafata layiq olanlar da var, layiq olmayanlar da. Məncə, layiq olanlar daha çoxdur, layiq olmayanlar isə onsuz da çox şeylərə nail olanlardır, medal hayında deyillər. Onlar sadəcə onlara göstərilən diqqətdən, qayğıdan məmnundurlar. Medalın elə bir maddi dəyərinin olmadığını yaxşı bilirlər. Hətta aralarında eləsi var ki, o medalın qızıldan düzəldilmiş variantının seriya istehsalını təşkil edə bilər.

Bir də təltif gözləyən, amma təltif edilməyənlər var və onlar bundan bir balaca pəjmürdədirlər. Heç onlar da 10-15 qramlıq metalı olan medala görə dava etmirlər, sarayın diqqətində olmamağın, saya salınmamağın əndişəsini çəkirlər. Bu, heç də xırda motiv deyil.

Bu gün sənə medal vermirlərsə, demək, 2020-ci ildə mandat da verməyəcəklər, umduğun vəzifəni də görməyəcəksən.

Əlbəttə, bu gün medalla təltif olunmaq o anlama gəlmir ki, gələn il mütləq deputat seçiləcəksən. Bildiyimiz kimi, bu məsələni əlahəzrət seçici həll edir. Şübhəsiz ki, bu gün medal alanların içində gələn il mandat alanlar da olacaq. Ancaq böyük əksəriyyətin görüb-görəcəyi elə bu medaldır. Çünki medalın sayı məhdud deyil, mandatın sayı isə 125-dir, hamıya çatmır.

**Ona görə də təltif sarıdan umsuq olanlar gərək bunu ürəklərinə salmasınlar. Medal yoxdur, eyb eləməz, əsas toğlu puludur, o varsa, gözəgörünməzə şükür edin.**

# "Qara Qarayev prospektindəki yanğınların çoxu qısaqapanmadan baş verib"

## **İcra başçısının müavini Qərib Məmmədov:** "Rayon elektrik şəbəkəsi tərəfindən insanların cəm toplaşdığı yerlərdə, xətlərdə, şitlərdə yoxlama aparılır"

**Son aylar Nizami rayonunun Qara Qarayev prospektində yerləşən obyektlərdə ard-arda yanğınlar baş verib. Yanğın hadisələri əsasən ticarət mərkəzlərində yaşanıb və səbəb kimi də naqillərdə olan qısaqapanma göstərilib.**

Yaxın tarixə nəzər salsaq, öncə mart ayında baş verən "Diqlas yanğını"nı qeyd edə bilərik. Belə ki, iri ticarət mərkəzi olan "Diqlas"da baş verən yanğın nəticəsində onlarla sahibkara külli miqdarda ziyan dəydi. Həmçinin alovun ətrafdakı obyektlərə, piştaxtalara keçməsi nəticəsində ticarət mərkəzinə yaxın yerləşən bütün obyektlər külə döndü. Rəsmi açıqlamalara görə binanın yanğından tam şəkildə mühafizə olunan sahəsi isə 275 kvadratmetr təşkil edib. Belə ki, yanğından tam qorunan 175 kvadratmetrlik sahə binanın sağ yan hissəsinə, 100 kvadrat metrlik sahə isə binanın ön hissəsində yerləşən mağazalara aid olub. Binanın ümumi sahəsi 17 559 kvadratmetr olub. Lakin qərar verildi ki, "Diqlas" ticarət mərkəzinin yanğından zərər görmüş binası tamamilə sökülsün. Hazırda da söküntü prosesi davam etdirilir.

Bunun ardınca iyun ayında Qara Qarayev prospektində yerləşən "X-lady" qadın geyimləri mağazasında yanğın baş verdi. Bu yanğın nəticəsində də mağaza sahibinə xeyli ziyan dəydi. Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının səyləri nəticəsində yanğın ətrafdakı mağazalara keçmədi. Bildirildi ki,yanğına səbəb mağazada olan və normadan artıq işlədilən printer olub. Ərazidə jurnalistlərə açıqlama verən **Bakı şəhər icra başçısı Eldar Əzizov** isə aşağıdakıları bildirdi:

"Bu cür hadisələr demək olar dünyanın bütün ölkələrində baş verir. Heç bir ölkə belə hadisələrdən sığortalanmayıb. Nizami rayonunun paytaxtın digər rayonlarından fərqi burada ticarət obyektləri baxımından sıxlığın yüksək olmasıdır. Ona görə də gələcəkdə belə hadisələrdən sığortalanmaq üçün lazımi işlər görülür. Yanğının başvermə səbəbləri obyektiv qaydada araşdırılacaq..."



Qərib Məmmədov

Araşdırma prosesinin getdiyi dönəmdə bu ilin iyul ayında yenə də Qara Qarayev prospektində yerləşən "Ağ Çiçəyim" gül mağazasında yanğın baş verdi. Yanğın nəticəsində mağazaya xeyli ziyan dəydi. Bildirdildi ki, yanğının baş vermə səbəbi, gecədən işlək vəziyyətdə buraxılan kondisioner olub. Baş verən qısaqapanma nəticəsində mağazada alışma yaranıb və yanğın genişlənib. Yenə də Fövqəladə Hallar Nazirliyinin əməkdaşları tərəfindən yanğın lokallaşdırıldı və ətraf ərazilərə keçməsinin qarşısı alındı.

Bəs Qara Qarayev prospekti niyə yanır? Yanğınlardan sonra hansı işlər aparılır?

"Yeni Müsavat"ın əməkdaşı olaraq hələ "Diqlas" ticarət mərkəzində baş verən yanğından sonra prospekt boyunca bir neçə mağazada olmuşduq. Həmin zaman da müşahidə etdmişdik ki, obyektlərin əksəriyyətində yanğın təhlükəsizliyi qaydalarına əməl edilməyib. Yanğın çıxışlarını göstərən işarələr qoyulmayıb, avtomatik işə düşən siqnalizasiyalar, su xətləri quraşdırılmayıb, obyektlərin qarşısında yanğın şitləri, qolları yaradılmayıb.

Bununla yanaşı mütəxəssislər bildirirlər ki, mağazaların və bu kimi obyektlərin əksəriyyətində naqillərin "n" kəsiyinə diqqət edilmir. Nazik kabellər normadan artıq yüklənir, qığılcım yarana biləcək hissələr yanar konstruksiyalara birləşdirilir, yanğın təhlükəsizliyinə biganə yanaşılır. Mütəxəssislərə görə bunun nəticəsidir ki, yay aylarında xüsusilə də sübh çağında evlərdə, obyektlərdə yanğınlar baş verir. Səbəb isə gecədən yüklü qalan naqillərin isinməsi, əriməsi və yanğına səbəb olmasıdır.

Yeri gəlmişkən onu da qeyd edək ki, Qara Qarayev prospektində ard-arda yanan yuxarıda qeyd etdiyimiz obyektlərin hamısı, sübh çağında alışıb...

**Nizami Rayon İcra Hakimiyyətinin icra başçısının müavini Qərib Məmmədov** "Yeni Müsavat"a bildirib ki, müvafiq qurumlar tərəfindən işlər aparılır, tapşırıqlar verilir:

"Yanğınların çoxu qısaqapanmadan baş verir. Yanğından sonra Dövlət Yanğından Mühafizə Xidmətinin əməkdaşları baxış keçirib, yanğının yaranma səbəbi ilə bağlı rəy verirlər. Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin özünün xüsusi əməkdaşları var ki, onlar obyektlərə baxış keçirib, tapşırıqlar verirlər. Bundan əlavə Nizami Rayon İcra Hakimiyyəti tərəfindən də məsələ ilə bağlı göstərişlər olub. Biz rayon elektrik şəbəkəsinə göstəriş vermişik ki, monitorinqlər həyata keçirsinlər. İnsanların cəm toplaşdığı yerlərdə, xətlərdə, şitlərdə yoxlama aparsınlar. Onlar bu işlə məşğuldurlar. Ümumiyyətlə, həmin qurumlar mütəmadi şəkildə bu cür yoxlamaları aparırlar. Hadisədir, baş verəndə verir. Dediyim kimi, biz üzərimizə düşən öhdəliklərin yerinə yetirilməsi üçün lazımı qaydada çalışırıq. Obyekt sahibləri də gərək diqqətli olub, elektriklə, qazla davranışlarında qaydalara əməl etsinlər".

❑ Əli RAİS,
"Yeni Müsavat"

# Tanınmış vəkillə kollegiya arasındakı problem çözüldü

## **Elçin Sadıqov:** "Məsələləri müzakirə etdik və həll olundu"
## **Anar Bağırov:** "Rəyasət Heyətinin iclasında məsələyə yenidən baxacağıq"

**Tanınmış vəkil Elçin Sadıqov Vəkillər Kollegiyasının sədri Anar Bağırov və qurumun Rəyasət Heyətinin üzvləri ilə görüşüb.**



Anar Bağırov



Elçin Sadıqov

Görüşlə bağlı "Yeni Müsavat"a açıqlama verən Elçin Sadıqov deyib ki, Anar Bağırov və Rəyasət Heyətinin üzvləri ilə görüşdə son günlər aralarında yaranmış problemləri müzakirə ediblər: "Problemləri müzakirə etdik və həll etdik. Barəmdəki intizam icraatına xitam veriləcəyi bildirildi. İntizam icraatına xitam verildiyi üçün VK RH-ə təşəkkür edirəm. Eyni zamanda vəkilliyin nüfuzunu müdafiə edən bütün dostlara da təşəkkürümü bildirirəm".

E.Sadıqovun sözlərinə görə, onun inzibati məsuliyyətə cəlb edilməsilə bağlı məsələ həllini tapıb. Vəkilə bildirilib ki, intizam icraatına xitam veriləcək.

Vəkillər Kollegiyasının sədri Anar Bağırov problemin həll edildiyini təsdiqləyib. "Vəkil Elçin Sadıqovla görüşdük. Məsələni sivil qaydada həll etdik. O, facebook-da yazdığı statusu (intizam icraatının başlanmasına əsas omuşdu) sildi. Biz də bunu nəzərə alaraq qarşılıqlı addım atacağıq. İyulun 17-də Rəyasət Heyətinin iclasında məsələyə yenidən baxacağıq", - A. Bağırov Turan-a bildirib.

**Xatırladaq ki, intizam icraatına E.Sadıqovun Vəkillərin İntizam Komissiyasının keçmiş üzvü, mərhum Sərdar Qasımovla bağlı status yazması səbəb olub. Vəkil bildirmişdi ki, S.Qasımov komissiyanın qərarlarını rəhbərliyin sifarişilə hazırlayırmış. S.Qasımovun xanımı E.Sadıqovdan şikayət etmişdi.**

❑ Elşən MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 147 (7317) 13 iyul 2019

# Eldar Mahmudovun "kompromat sandığı" yenidən gündəmdə

## Əvəz Zeynallı: "Onun xaricdə əlaltıları çoxdur və bu şəxslərə material ötürə bilər"

**"MTN çetesi"nin ifşasının 4-cü ili yaxınlaşır. 2015-ci il oktyabrın 17-də prezidentin sərəncamı ilə Eldar Mahmudov nazir vəzifəsindən çıxarıldı, onun komandasının 20-dən çox üzvü həbsə alındılar. Eldar Mahmudovun və dəstəsinin MTN-də (ləğv edilib) hansı cinayətlər törətdiyi məhkəmə yolu ilə sübuta yetirilib.**



Eldar Mahmudov

Yada salaq ki, artıq ləğv edilən Milli Təhlükəsizlik Nazirliyinin sabiq rəhbərinin vəzifədən azad edilməsindən və bu qurumun yüksək vəzifəli şəxslərinin həbsindən dərhal sonra proses digər nazirliklərə də keçdi. Bəlli oldu ki, MTN-dəki cinayətkar şəbəkə digər nazirlikləri də qanunsuz işlərə cəlb edib. Sahibkarların soyulması, qanunsuz dinləmələrlə bağlı cinayət işi üzrə Rabitə və Yüksək Texnologiyalar Nazirliyində, Vergilər Nazirliyində də əməliyyatlar həyata keçirildi. MTN çetesi ifşa olunandan sonra məlum olmuşdu ki, Mahmudovun dəstəsi nazirliklərə öz adamlarını yerləşdirib, onlarla "qarşılıqlı informasiya mübadiləsi" edərək sahibkarları əvvəl həbs edib, sonra isə külli miqdarda pul alaraq azadlığa buraxıblar.

Eldar Mahmudovun özünü ayaqda tutmaq üçün bu gün də eyni üsullardan istifadə etməsi haqda xəbərlər yayılır. Bu günə qədər təkzib olunmayan məlumatlara görə E.Mahmudov işdən çıxarılandan az sonra tam şəkildə sərbəst hərəkət izni alıb. O, daha ölkə sərhədləri çərçivəsində dustaq deyil. Hərəkət sərbəstliyi sabiq nazirə ölkədən sərbəst çıxıb geri qayıtmağa imkan verir. Gələn məlumatda deyilir ki, Eldar Mahmudov ötən yay tətilini əsasən ölkədən kənarda keçirib. Onun bir müddət Londonda istirahət etməsi haqda da iddialar var. Bu, E.Mahmudovun adamlarının reabilitasiyası haqda xəbərlərlə eyni vaxta təsadüf edir. Eldar Mahmudovun və ona yaxın kadrların yenidən üzə çıxmaları maraq doğurur. Yada salaq ki, sabiq nazirin ən yaxın adamlarının bəziləri hələ də axtarışdadır. Onlardan biri "Akula Akif" ləqəbli Akif Mustafayev, digəri isə Ayaz Elxan oğlu Kərimovdur. Hər iki şəxs 4 ilə yaxındır ki, Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən axtarılsa da, hələ də ələ keçməyiblər. Eldar Mahmudovun özünün həbs ediləcəyi də artıq inandırıcı deyil.

Sabiq nazirin əlindəki kompromatlardan istifadə edərək özünü və ətrafını qoruya bilməsi, materiallarının çox hissəsinin xaricə transfer etməyi bacarması haqda bilgilərə münasibət bildirən "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı deyir ki, Eldar Mahmudov məsələsi son dərəcə ibrətamiz, çox maraqlı, son illər ölkə həyatında baş verən ən qəribə olaydır: "Bu adamın illərdir ki, həbs edilməsi mümkün olmur. Düzdür, 3-4 dəfə çağırıb dindiriblər, Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsindən çıxarkən fotolarını yayıblar, amma bütün bunlar Eldar Mahmudovun hələ də güclü fiqur olaraq qaldığını təsdiq etməkdən başqa bir işə yaramayıb".

**Ə.Zeynallı hesab edir ki, Eldar Mahmudovu qoruyan nələrsə və ya kimlərsə var. Bu faktorlar isə o qədər güclüdür ki, Eldar Mahmudov rahatca əli-ni-qolunu sallaya-sallaya gəzir:** "Onun rəhbər vəzifədə olduğu dövrdə onlarla insan həbs olunub, onlarla insanların həyatları qaraldılıb. Günahsız insanlar həbsxanalarda yatıblar. Eldar Mahmudova bütün bunlardan sonra dəyib-dolaşan yoxdur, arxayın şəkildə gəzir. Əlində böyük maliyyə resursları olan, geniş əlaqələri və ailəsi xaricdə olan biri çox rahatlıqla ölkədən istədikləri kompromatları, xəbərləri çıxara, ötürə bilərlər. Niyə də bunu etməsinlər ki?"

**Əvəz Zeynallı deyir ki, bu gün Eldar Mahmudovun qulluğunda onlarla adam var:** "Maddi imkanları kifayət qədər yetərlidir, ailəsi xaricdədir. Oğlunun xaricdə geniş əlaqələri var, biznesi də davam edir. Yəni Eldar Mahmudovun istədiyi işi görmək kimi imkanları var. O, istənilən kompomat materialları xaricə çıxarmaq iqtidarındadır. Özü haqda gələn məlumatlardan da belə aydın olur ki, Eldar Mahmudov çox rahatdır, xeyrə, şərə, yemək-içmək məclislərinə qatılır".

**Əvəz Zeynallı deyir ki, tarixdə ilk dəfədir ki, bir xəfiyyə qurumu bütövlükdə mütəşəkkil cinayətkar dəstə kimi fəaliyyət göstərib, komandasının həbs olunan üzvlərini belə azadlığa çıxarmağa bacarıb:** "Mahmudovun vaxtında Milli Təhlükəsizlik Nazirliyi o dərəcədə cinayətə bulaşmışdı ki, qurumun ümumiyyətlə ləğvinə qərar verildi, həmin o mütəşəkkil cinayətkar dəstəni təməlindən dağıtmaq istədi. Həmin o mütəşəkkil dəstənin də başçısı general-polkovnik Eldar Mahmudov idi. O nə qədər azadlıqda olacaqsa, istədiyi kimi hərəkətlər edəcək, xaricə məlumat da ötürəcək, həbsə alınan adamlarını da həmin komprmateriallardan istifadə etməklə azadlığa buraxdıra biləcək. Yaxınlarda Akif Çovdarovun da azadlığa çıxacağı gözlənilir. O da artıq nüfuz etməyə başlayıb. Özü haqda mediaya xəbərlər ötürür. 1 il ötməz ki, Eldar Mahmudovun komanda üzvlərinin hər biri azadlıqda olar və xarici filmlərdə olduğu kimi bandit dəstələri yaradıb fəaliyyətə başlayarlar. Əllərindəki imkanlar bunu deməyə əsas verir".

**Əvəz Zeynallı Eldar Mahmudovun ölkədən çıxardığı komprmaterialları xaricdə kimlərə ötürə biləcəyi haqda bunları deyib:** "Qudası Zamirə Hacıyeva illər öncə, Hacı Məmmədovun girovluğundan sonra İngiltərəyə köçüb. Orada illərlə yaşayıb. Ümumiyyətlə isə bunların uşaqları Azərbaycan təhsili belə almayıblar. Orada uşaq böyüdüblər, oxudublar, evləndiriblər. Düzdür, hazırda Zamirə Hacıyevanın başı qaldadır. Onu məhkəməyə çəkiblər, hərəkət məhdudiyyəti tətbiq olunub. Amma bu gün Eldar Mahmudovun Zamirə Hacıyeva kimi xaricdə onlarla inandığı, etibar etdiyi adamlar var. Yəni onun xaricdə "zamirələri" çoxdur və hansına istəsə ona komprmaterial ötürə bilər. Buna kifayət qədər imkanları da var. İstədiyi zaman da həmin materialların hərəkətliliyini təmin edər".

**Ə.Zeynallı ehtimal edir ki, Eldar Mahmudovu qoruyan əlində olan kompramat bankıdır:** "Eldar Mahmudov vəzifədə olanda da, işdən çıxarıldığı ötən 4 il ərzində də ölkədən istədiyi qədər material çıxara bilərdi. Bütün bunların nəticəsidir ki, o, ayaqda qala bilib".

Yada salaq ki, hazırda Eldar Mahmudovun qudası, Beynəlxalq Bankın sabiq prezidenti Cahangir Hacıyev də maliyyə xəyanətinə görə həbsdədir. Onu 15 milyard dolları ölkədən çıxarmaqda ittiham edib qandallamışdılar. C.Hacıyev 15 il müddətinə azadlıqdan məhrum edildi. Onun həyat yoldaşı Zamirə Hacıyevanın 10 il ərzində Londondakı bahalı mağazalarda 21 milyon dollardan artıq pul xərcləməsindən dolayı da araşdırmalar davam edir.

**Ləğv olunmuş MTN-in həbsə alınan yüksək vəzifəli şəxslərinin bir qismi barəsində ittihamedici hökmlər çıxarılıb cəza təyin olunsa da, artıq azadlıqdadırlar. Eldar Mahmudovun MTN-ə rəhbərlik etdiyi 11 il ərzində dövlətin maraqları, necə deyərlər, ayaqlar altına atılıb. Bu gün Eldar Mahmudovun azadlıqda qalması həm də əlaltılarının vəziyyətini yaxşılaşdırır. O baxımdan ki, bütün ipucları ona yönəlir, onu isə tutmurlar.**

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

# Fazil Məmmədovu bu dəfə Almaniyaya apardılar

## Sabiq nazirin səhhətində problemlərin yenidən artdığı deyilir



Fazil Məmmədov

**Sabiq vergilər naziri Fazil Məmmədov Almaniyada əməliyyat olunub. Bakupost.az-ın yazdığına görə, Fazil Məmmədov Almaniyanın Heydelberq şəhərində yerləşən xəstəxanalardan birində mədəaltı vəzisindən əməliyyat edilib.**

Deyilənə görə, F.Məmmədov pankreatit xəstəliyindən əziyyət çəkir. Bildirilir ki, keçmiş nazir iyul ayının əvvəlindən müalicə üçün Almaniyadadır və iyulun 6-da cərrahi müdaxiləyə məruz qalıb. Hazırda onun vəziyyətinin stabil olduğu qeyd edilir. Həkimlər bildirib ki, o daimi həkim nəzarətində olmalı, mədəaltı vəziyə yığılan iltihab vaxtaşırı təmizlənməlidir. Buna görə də, keçmiş nazirin hələ bir müddət Almaniyada qalacağı gözlənilir.

Qeyd edək ki, Fazil Məmmədov vəzifədən çıxarılandan sonra onun vəziyyəti bir neçə dəfə pisləşib. Ötən ilin iyulunda o, təcili Türkiyəyə aparılıb. Həmin vaxt yayılan xəbərlərdə deyilirdi ki, F.Məmmədovun qaraciyərində problem yarandığı üçün Türkiyədəki məşhur "American Hastanesi"nə yerləşdirilib. Buna qədər isə Fazil Məmmədovun özünə məxsus olan Gəncə Beynəlxalq Hospitalında tibb elmləri üzrə fəlsəfə doktoru İlyas Həsənovun nəzarəti altında müalicə alması xəbərləri yayılmışdı.

**Bəzi iddialara görə isə Fazil Məmmədov mal-mülkünü qorumaq üçün ciddi xəstəliyi olduğu görüntüsünü yaradır...**

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**



# Polis Bakıda bankomatların yararsız hala düşməsi faktını araşdırır

**Bakıda iki bankomat yararsız vəziyyətə düşüb.**

APA-nın məlumatına görə, Binəqədi rayon Biləcəri qəsəbəsində yerləşən, "Beynəlxalq Bank"a və "Kapital Bank"a məxsus ödəmə terminallarının yanaraq yararsız hala düşdüyü ehtimal olunur.

**"Azərbaycan Beynəlxalq Bank"ın mətbuat xidməti rəhbəri Yadigar Cəfərov** APA-ya açıqlamasında bildirib ki, banka bu barədə məlumat daxil olan kimi müştərilərin bankomat xidmətlərindən istifadəsi ilə bağlı çətinliklərin yaranmaması üçün qısa müddət ərzində həmin ərazinin yaxınlığında yeni terminal quraşdırılıb.

O, həmçinin qeyd edib ki, hazırda müvafiq qurumlar hadisənin səbəblərini araşdırır.

**"Kapital Bank"ın mətbuat xidmətindən də APA-ya deyilib ki, faktla bağlı hüquq-mühafizə orqanlarına rəsmi müraciət olunub:** "Hazırda araşdırma aparıldığı üçün terminalı hələ ki yenisi ilə əvəz edə bilmirik. Yaxın günlərdə araşdırma yekunlaşandan sonra ərazidə yeni bankomat müştərilərin xidmətində olacaq".

Hər iki bankdan ödəmə terminallarından oğurluq edilmədiyi də bildirilib.

**Binəqədi rayon Polis İdarəsinin 6-cı Polis Şöbəsindən isə APA-ya deyiblər ki, hazırda faktla bağlı araşdırma aparılır.**

YENİ MÜSAVAT
N 147 (7317) 13 iyul 2019

# Milli Məclis növbədənkənar sessiyanı başa vurub tətilə getdi

## Sonuncu iclasda Azərbaycan nümayəndə heyətinin ATƏT PA-da qazandığı uğurlardan danışıldı; gündəlikdəki 28 məsələyə baxıldı; **Oqtay Əsədov:** "Milli Məclis iyul ayında da işlədi və qanun layihələri payız sessiyasına qalmadı"



**İyulun 12-də Milli Məclisin növbədənkənar sessiyasının sonuncu plenar iclası keçirildi. Spiker Oqtay Əsədov bildirdi ki, iclasın gündəliyinə 28 məsələ daxildir. Bu sırada ikinci və üçüncü oxunuşlar, həmçinin imzalanmış sənədlərin təsdiqi də var.**

Plenar iclasda öncə ATƏT Parlament Assambleyasının Lüksemburqda keçirilən 28-ci illik sessiyasında Azərbaycan adına qazanılan uğurlardan danışıldı. Spiker Oqtay Əsədov bildirdi ki, bu günlərdə parlament sədrinin müavini Bahar Muradovanın rəhbərliyi ilə Milli Məclisin nümayəndə heyəti ATƏT Parlament Assambleyasında uğurlu çıxış edib. Spiker bu münasibətlə nümayəndə heyətini təbrik etdikdən sonra parlamenti məlumatlandırmaq üçün sözü vitse-spiker Bahar Muradovaya verdi. B.Muradova sədrə təşəkkürünü bildirdikdən sonra Azərbaycan nümayəndə heyətinin qarşısında duran vəzifələr barədə çıxış etdi. "ATƏT Parlament Assambleyasının Lüksemburqda keçirilən 28-ci illik sessiyasında qəbul edilən Yekun Deklarasiyada Azərbaycanın təklifləri nəzərə alınıb. Bizim maraqlarımız orada təmin olundu", - deyə B.Muradova bildirdi.

**B.Muradova qeyd etdi ki, Azərbaycan XİN səfirliklər vasitəsilə əvvəlcədən ATƏT PA üzvü olan bütün ölkələri məlumatlandırmışdı və bu da uğurlarımızın qazanılmasında öz rolunu oynayıb:** "Aparılan işin təsiri artıq sessiyanın ilk günündə hiss olunmağa başladı. Bu sənəd dərhal Parlament Assambleyasının Nazirlər Şurasına təqdim olunur və qurum bundan sonra həmin sənədə istinad edəcək. Deməli, bu sənədə əsasən, Dağlıq Qarabağ və ətrafındakı 7 rayon da Azərbaycan ərazisi kimi göstərilir. Hətta 7 rayonunun adları da sadalanır. Prosesin gedişində ermənilərin dəfələrlə etirazı oldu. Hətta Azərbaycanın adının bu siyahıdan çıxarılması üçün çox cəhdlər edildi, çağırışlar edildi. Lakin Azərbaycanın adının çıxarılmasına yalnız 6 səs verildi, 47 səs isə bunun əleyhinə oldu. Bu, bizim böyük uğurumuzdur. Artıq Azərbaycanı bu sıradan çıxartmaq mümkün olmayacaq".

**B.Muradova ATƏT PA-da Azərbaycanın maraqlarına uyğun olaraq qəbul olunmuş digər sənəddən də bəhs etdi:** "Bu sahədə əldə etdiyimiz nailiyyət bundan sonra diplomatik sahədə bizə böyük fayda gətirəcək", vitse-spiker bildirdi. Çıxışı zamanı zaldakı səs-küyə sərt reaksiya verdi: "Bəlkə maraqlı deyil, yoldaşlar?!"

**B.Muradova dedi ki, bundan əvvəlki 3 il müddətində ATƏT PA çərçivəsində deputat həmkarımız Azay Quliyev çox uğurlu fəaliyyət göstərmişdi. Bundan sonrakı 3 il ərzində yenə də A.Quliyev vitse-prezident kimi, fəaliyyət göstərəcək:** "Azərbaycan nümayəndə heyətinin ATƏT PA-da hörməti çoxdur. Biz hətta namizədimiz üçün imza toplamaq istəyəndə namizədimizin necə böyük hörmətə malik olduğunu gördük. Namizəd üçün ən çox səsi bizim nümayəndə topladı - 43. Ən çox imza da Azay Quliyevə məxsus idi - 111 səs". Deputatlar bu fikirlərə alqışlarla qarşılıq verdilər.

**Yekunda B.Muradova spiker O.Əsədova, Prezident Administrasiyasının məsul işçilərinə və digərlərinə təşəkkür etdi:** "Bu, mənim 15 il ərzində ATƏT PA-da ən çox razı qaldığım sessiya idi".

Sədr dedi ki, bu, doğrudan da çox böyük nailiyyətdir. O.Əsədov A.Quliyevi şəxsən təbrik etdi. Bildirdi ki, A.Quliyevin yenidən vitse-prezident seçilməsi Azərbaycanın bu qurumda rolunu daha da artıracaq.

**Deputat Azay Quliyev** də öz çıxışında xoş sözlərə görə O.Əsədova, B.Muradovaya, digər həmkarlarına təşəkkür etdi. Həmçinin bildirdi ki, bu, Azərbaycan dövlətinin adına böyük uğurdur.

İclasda "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" qanuna dəyişik barədə qanun layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarıldı. **Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə** layihə barədə məlumat verdi. Bildirdi ki, üçüncü oxunuşda layihəyə hər hansı əlavə və dəyişikliklər təklif edilməyib. Ona görə də komitə sədri layihəyə səs verməyə çağırdı.

Son dəyişikliyə görə, 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş müdafiə xərcləri 3.037.618.152 manatdan 3.187.618.152 manata qaldırılır. Eyni zamanda, 2019-cu il icmal büdcəsinin xərclərinin yuxarı həddinin məbləği 27 155 796,1 min manatdan 27 370 796,1 min manata qaldırılır.

Qanun layihəsi səsverməyə çıxarılaraq qəbul edildi.

İclasda Ali Məhkəmə sədrinin maaşının artırılması üçün qanunvericiliyə təklif edilən dəyişiklik layihəsi 3-cü oxunuşda müzakirəyə təqdim olundu. Qanun layihəsi barədə **Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli** məlumat verdi. Dəyişikliyə əsasən, Ali Məhkəmənin sədrinə Milli Məclis sədrinin aylıq vəzifə maaşı həcmində əməkhaqqı veriləcək. "Məhkəmələr və hakimlər haqqında" qanunun 106-cı **(Hakimlərin maddi təminatı)** maddəsinə əsasən, hakimlərə aylıq vəzifə maaşı həcmində vəzifə maaşına əlavə ödəniləcək. Ali Məhkəmənin sədrinə Milli Məclis sədrinin aylıq vəzifə maaşı həcmində əmək haqqı veriləcək - yəni 2475 manat.

Bundan başqa, səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı xərclərin ödənilməsi üçün hakimlərə vəzifə maaşının 25 faizi miqdarında vergidən azad olunan aylıq pul təminatı da veriləcək.

Dəyişikliklər səsə qoyularaq, yekdilliklə qəbul edildi.

Plenar iclasında "İşsizlikdən Sığorta Fondunun 2019-cu il büdcəsi haqqında" qanuna dəyişiklik layihəsi III oxunuşda qəbul edildi. Layihə barədə **Əmək və sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli** məlumat verdi. Qanuna əsasən, İşsizlikdən Sığorta Fondunun 2019-cu il büdcəsinin gəlirləri və xərcləri artırılaraq 98 451 400 manata çatdırılır. Komitə sədri qeyd etdi ki, layihəyə üçüncü oxunuşda əlavə və dəyişikliklər təklif edilməyib.

Layihə səsə qoyularaq qəbul edildi.

**Deputat Qüdrət Həsənquliyev** əmək pensiyalarının indeksləşdirilməsini nəzərdə tutan layihədən bəhs edərkən dedi ki, indeksləşdirmə çox mütərəqqi dəyişiklikdir: "Burada ildə bir dəfə indeksləşdirmədən söhbət gedir. Amma biz son illərdə devalvasiyanın şahidi olduq. Allah eləməsin ki, Azərbaycanda yenidən hansısa bir devalvasiya və ya ciddi inflyasiya olsun. Amma biz qanunvericiorqan kimi müəyyən məsələləri nəzərə almalıyıq. O baxımdan düşünürəm ki, gələcəkdə ildə bir dəfə indeksləşmə olmamalıdır, ayda bir dəfə olmalıdır. Müvafiq dövlət orqanlarının işi nədir ki? Misal üçün ilin əvvəlində və ya ilin sonunda indeksləşmə oldu, amma bir ay sonra ciddi inflyasiya baş verdi. Belə çıxır təqaüdçülər, sosial müavinət alan imkansız insanlar gözləməlidirlər ki, bir ildən sonra yeni indeksləşmə olacaq və onlara verilən pensiya, yaxud yardımın məbləği artacaq. Ona görə də müvafiq orqanlar ayda bir dəfə toplaşıb məsələni müzakirə edə bilərlər. Ehtiyac yoxdursa, lap yaxşı, amma ehtiyac varsa, artımla bağlı addım atsınlar".

Q.Həsənquliyev əlavə etdi ki, payız sessiyasında, müvafiq icra orqanları ilə müzakirə aparmaqla bu məsələyə yenidən qayıdılsa, yaxşı olar.

**Parlamentin vitse-spikeri Valeh Ələsgərov** isə pensiyaların ildə bir dəfə indeksləşdirilməsinin səbəbi barədə danışarkən dedi ki, istehlak qiymətləri indeksinə uyğun olaraq əmək pensiyalarının ayda bir dəfə indeksləşdirilməsi olarsa, rəqəm bir ay yüksələcək və bir ay enəcək.V.Ələsgərov əlavə olaraq birilliyin seçilməsini bu cür qeyd etdi: "Bir illik ona görə seçilib ki, orta dəyəri qiymətləndirib, ona uyğun indeksləşdirilmə həyata keçirilir".

Uzun müddətdir iclaslarda çıxış etməyən **deputat, Sosial Tədqiqatlar Mərkəzinin direktoru Zahid Oruc** söz alaraq, bəzi dövlət qurumlarını tənqid etdi. Mərkəz rəhbəri 3 ay ərzində dövlət qurumlarının informasiya siyasətini təftiş etdiyini açıqlayaraq bəzi dövlət qurumlarını aktiv olmağa çağırdı: "İçərişəhərdəki qala divarları ilə bağlı hakimiyyəti vurmağa çalışdılar. Mehriban Əliyeva hadisə yerinə gəldi və medianın qarşısına çıxdı. Bu, əsən-coşan emosiyalara da aydınlıq gətirildi". **Z.Oruc qeyd etdi ki, malakanların abidəsi ilə bağlı məsələyə də Mehriban Əliyeva müdaxilə edib:** "İnformasiya məkanında öz mövqelərini quran, hər gün hakimiyyətə qarşı çıxan, hakimiyyətin monolitliyini pozmaq üçün hər cür fəaliyyət göstərən qüvvələr var".

Ardınca o, Gəncə hadisələri zamanı həbsxanada vəfat edən Aydın Qurbanovun ölümü ətrafında baş verənlərə toxundu. Z.Oruc bildirdi ki, dövlət qurumları informasiya siyasətini düzgün qurmalıdırlar: "Gəncə hadisələrində iştirak edən adamlardan biri həbsxanada dünyasını dəyişib, xərçəngdən ölüb. Üç gün sonra Baş Prokurorluq, Penitensiar Xidmət açıqlama verib. Belə gecikmə olmamalıdır. Belə təbliğat aparılır ki, guya gəncəlilərə qarşı hansısa fəaliyyət var. Dövlət qurumlarının, prokurorluğun, Ali Məhkəmənin, istintaq orqanlarının yaxşı binaları var. Bu adamlar açıqlama niyə vermirdilər? Gəncədə polis zabitini qətlə yetirən şəxs Şəmkirdə qarğıdalı sahəsində polisləri qətlə yetirməyə hazırlaşarkən öldürülmüşdü. Düz də edilmişdi. Lazımi məsul şəxslər vəzifələrini yerinə yetirməli, cəmiyyəti məlumatlandırmalıdırlar. Azərbaycan əleyhinə informasiya terroru aparanlara zamanında cavab verilməlidir".

**O.Əsədovun reaksiyası maraqlı oldu:** "Çoxdandır danışmırdın deyə, söz verdik. Dediyin sözlərdə həqiqət var. Çalış, gələn dəfə tez-tez danış, darıxırıq sən danışmayanda. Amma gündəlik ətrafında danış".

**Deputat Qüdrət Həsənquliyev** isə Z.Orucun dediyi bəzi fikirlərlə razılaşmadı: "Dövlət qurumlarında nöqsanlar var. Amma o fikirdə deyiləm ki, həmin orqanlar vətəndaşları dövlətin üzərinə qaldırmaq istəyirlər. Bu, kifayət qədər ciddi ittiham oldu".

İclasda "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" qanuna dəyişiklik layihəsi müzakirə edildi. Layihə barədə məlumat verən **komitə sədri Əli Hüseynli** bildirdi ki, layihədə qanunun qüvvəyə minmə vaxtının uzadılması təklif edilir. Belə ki, "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" qanunun 8-ci - Qanunun qüvvəyə minməsi - maddəsində "2020-ci il yanvarın 1-dən" sözləri "2022-ci il yanvarın 1-dən" sözləri ilə əvəz edilib.

**Beləliklə, qanun 2020-ci il yanvarın 1-dən deyil, 2022-ci il yanvarın 1-dən qüvvəyə minəcək.**

Dəyişiklik layihəsi səsverməyə çıxarılaraq qəbul olundu.

Milli Məclisdə "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" qanuna dəyişiklik müzakirə edilərkən **Yeni Azərbaycan Partiyası icra katibinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov** söz alaraq bəzi iradlarını çatdırdı. "Biz bu gün bayraq haqqında danışırıqsa, Azərbaycanda ilk dəfə bu bayrağı qaldıran, müstəqil Azərbaycan dövlətini quran Heydər Əliyevin bir neçə gün sonra hakimiyyətə gəlməsinin 50 illiyini diqqətdən qaçırmamalıyıq", deyə, S.Novruzov bildirdi. Komitə sədri dedi ki, H.Əliyev birinci dəfə hakimiyyətə gələndə bütün sahələrdə tərəqqi başladı: "İkinci dəfə Heydər Əliyev hakimiyyətə gələndə Azərbaycanın parçalanmasının qarşısını aldı, müstəqil dövlətimizi qurdu. Bu gün prezident İlham Əliyev həmin siyasəti davam etdirir. Bu dövlətin qurucusu var, biz mütləq Heydər Əliyevi yada salmalıyıq. Biz Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illiyi ilə bağlı parlamentdə bir bəyanat, müraciət qəbul etməliyik. Ola bilsin ki, bəziləri tarixi unudur. Ona görə də bunları xatırlatmaq lazımdır".

Deputat Məlahət İbrahimqızı da S.Novruzovun fikirlərini müdafiə etdi. Bildirdi ki, Azərbaycan dövlətinin varlığında, onun böyük uğurlar qazanmasında və regionun lider dövlətə çevrilməsində yarım əsr əvvəl hakimiyyətə gəlmiş H.Əliyevin danılmaz rolu var və bu, qeyd olunmalıdır.

Bundan sonra Milli Məclisin növbədənkənar sessiyası öz işini başa çatdırdı. Spiker Oqtay Əsədov iclası yekunlaşdırarkən bildirdi ki, ilk dəfə parlament iyul ayında da işlədi və qanun layihələri payız sessiyasına qalmadı. Bu münasibətlə sədr deputatlara təşəkkür etdi və onlara yay tətilində yaxşı dincəlib payız sessiyasına xoş əhval-ruhiyyə ilə gəlməyi arzuladı.

Dövlət Himninin oxunmasından sonra sessiya öz işini başa çatdırdı və deputatlar tətilə yollandı.

**Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 147 (7317) 13 iyul 2019

**Bu günlərdə sabiq nəqliyyat naziri Ziya Məmmədovun namaz qıldığı, Quran oxuduğu haqda informasiyalar yayılmışdı.**

O, "Yeni Müsavat"a müsahibəsində ibadətlə məşğul olduğunu təsdiqlədi. Z.Məmmədov da müsahibəsində deyilənləri təkzib eləmədi və ibadətin hər bir müsəlmanın borcu olduğunu açıqladı.

Onun sözlərinə görə, bütün dövrlərdə ibadət edib. Sabiq nazirin müsahibəsi ölkə gündəmində bir nömrəli müzakirə mövzusuna çevrilib.

Eyni zamanda sosial şəbəkələrin Azərbaycan seqmentində Z.Məmmədovun dediklərinə reaksiyalar verilir, polemika aparılır, müxtəlif mövqelər ortaya qoyulur.

Keçmiş nazirin müsahibəsi ictimai maraq doğurduğu üçün bu məsələlərə **onun qardaşı, eks-deputat, hazırda Azərbaycan Texniki Universitetinin Strateji inkişaf üzrə prorektoru Elton Məmmədov**un mövqeyini öyrənmişik.

Həmçinin, prorektor öz fəaliyyəti, gələcək planları, ölkədəki ictimai-siyasi vəziyyət barədə danışıb. Onun "Yeni Müsavat"a müsahibəsini təqdim edirik:

# "Biz əfəndi nəsliyik..." - Ziya Məmmədovun qardaşı "Yeni Müsavat"a ilginc açıqlamalar verdi

## **Prorektor Elton Məmmədov:** "Allah məscidləri namazın sütunu adlandırıb, əlhəmdüllah, biz də ibadətimizi edirik, amma kimsəyə bəyan etməyə ehtiyac yoxdur"



Elton Məmmədov

"Zaman göstərər ki, seçkidə iştirak edəcəyəm, ya yox..."

***- Elton müəllim, prorektor postunda işləriniz necə gedir?***

- Çox şükür, işlər öz qaydasında gedir. Təyinatdan dərhal sonra fəaliyyətimə başlamışam.

***- Pedaqoji fəaliyyət sizin üçün yenidir?***

- Təbii ki, yox. Mən 2007-ci ildən Azərbaycan Texniki Universitetində çalışıram. Hazırda 2018/2019 tədris ili başa çatıb. Hər il rəhbərlik etdiyim sahələrlə yeni layihələrlə çıxış edirəm. Eyni zamanda dövlət proqramı, təhsilin strategiyası proqramı fonunda işlər həyata keçiririk. 2019-2023-cü illəri əhatə edən təhsilin inkişaf strategiyası proqramı var və bu istiqamətdə layihələr icra olunur.

***- ATU-da nə qədər tələbə təhsil alır?***

- Kollecləri də daxil eləsək, ümumi 12 mindən çox tələbə var.

***- Mətbuatı izləyirsiniz?***

- Əlbəttə izləyirəm. Gündəlik olaraq dünyada və Azərbaycanda gedən proseslər diqqət mərkəzimdədir.

***- Prezidentin son təyinatları, yanvardan başladığı yeni siyasi kurs barədə nə deyə bilərsiniz?***

- Mən təyinatlara münasibət bildirmək istəmirəm. Çünki prezidentin səlahiyyətində olan məsələdir. Biz qərarları şərh edə bilmərik. Dövlət başçısının addımlarına, təyinatları hörmətlə yanaşırıq.

***- Parlament seçkilərinə bir il qalıb, yenidən deputatlığa namizəd olmağı fikirləşirsinizmi?***

- Bunu zaman göstərər. Mən indidən deyə bilmərəm ki, seçkidə iştirak edəcəyəm yoxsa etməyəcəyəm.

***- Elton müəllim, Ziya Məmmədovun müsahibəsində sizin babanızın şeyx olması barədə söz açılmışdı. Bu həqiqətdirmi?***

- Əvvəla, mən tituluna, cəmiyyətdəki mövqeyinə, dövlətçiliyə xidmətinə görə hər bir insana yüksək qiymət verirəm. Gərək mətbuat bir insan haqda sağlam münasibət bildirsin. Ziya müəllimin ibadətlə məşğul olması haqda məlumat elə təqdim olunub ki, onu oxuyan sabah cəmiyyətə başqa cür ötürür. İlk növbədə təhqirə yol verilməməlidir. Azərbaycanda informasiya təhlükəsizliyi haqqında qanun var.

***- Amma "Yeni Müsavat" Ziya müəllimin ibadət etməsini müsbət mənada təqdim edib və ictimai fiqur olduğu üçün bu qədər diqqət var...***

- Təşəkkür edirəm. İbadət Allahın hər bir müsəlmana buyurduğudur. Biz sağlam cəmiyyət formalaşmasını istəyirik. Allah məscidləri namazın sütunu adlandırıb. Əlhəmdüllah, biz də müsəlmanıq, ibadətimizi edirik. Amma onu kimsəyə bəyan eləməyə ehtiyac görmürəm. Allahın buyurduğu qədər xalqımıza xidmət edirik. Bizim istəyimiz təhlükəsiz bir cəmiyyət olsun, ölkəmiz inkişaf eləsin, dəqiq elmin tərəfdarıyıq. Mətbuatın da bu məsələdə böyük rolu var.

***- Amma babanızın şeyx olmasına aydınlıq gətirmədiniz...***

- Bəli, biz əfəndi nəsliyik. Böyük dini ziyalılarımız olub. O insanlar islamın yayılmasının qadağan olunduğu sovet dövründə dini çatdırmaqla məşğul olublar.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**



Ziya Məmmədov

# Sabiq nazirin ibadətinə ilahiyyatçılardan reaksiya





**Hacı Əbdül:** "Ziya Məmmədov əgər günahlarının bağışlanmasını istəyirsə, etdiyi səhvləri anlayırsa, bu halı yalnız alqışlamaq olar"
**Kənan Rövşənoğlu:** "Tövbə edən adama, onun dininə ikrah etmək haqqımız yoxdur"

**Sabiq nəqliyyat naziri Ziya Məmmədovun "Yeni Müsavat"a müsahibəsi ictimaiyyətdə böyük səs-küyə səbəb oldu. Xüsusilə də sabiq nazirin dinlə bağlı söylədiklərinə sosial şəbəkələrdə xeyli reaksiyalar verildi. Əvvəlcə məlumat üçün bildirək ki, Z. Məmmədov qəzetimizə müsahibəsində bildirmişdi ki, o, yaranandan, ağlı kəsəndən Allahı tanıyır, Allaha bəndəlik edir, onu sevir, əməli-saleh olmağa çalışır:**

"İbadət hər bir müsəlmanın Allah qarşısında borcudur. Mən bütün dövrlərdə ibadət eləmişəm. Hər bir müsəlmanın borcudur ki, ibadət etsin. İmanı olan insan namaz qılmalıdır. İslam dininin daşıyıcısı olmağımızla hər birimiz fəxr etməliyik. Mən də fəxr edirəm. Bu həyat müvəqqətidir. Ölüm mütləqdir. Allah da xəbərdarlıq edir ki, Qiyamət günü mütləq gələcək, insan əməlinə görə sorğu-sual olunacaq, cənnət-cəhənnəm müəyyənləşəcək. Bu həyatın özü enişli-yoxuşlu yol olduğu üçün, əzablı, lənətlənmiş yol olduğu üçün çalışmaq lazımdır ki, o dünyada heç olmasa cənnəti qazanasan, günahlarını yuyasan. Bu dünyada hər birimiz günah işlədə bilirik. İstədik, istəmədik, günah edə bilirik. Çalışırıq ki, həmin o günahları tövbə edib Allah qarşısında təmizləyək. Mən xalqıma, dövlətimə həmişə sədaqətli olmuşam. Sədaqətimdən də geri dönən deyiləm. Azdan-çoxdan mənim insanlara münasibətim çoxlarına bəllidir. Gördüyüm işlər də çoxlarına bəllidir, görüblər, qiymətləndiriblər. Allah hamısından razı olsun".

Bu sözlərə reaksiya verən sosial şəbəkə istifadəçiləri sabiq naziri vəzifədə olarkən günah işlətməkdə, dövlət büdcəsindən pul yayındırmaqda, keyfiyyətsiz yollar çəkməkdə qınayıblar. Bəzi şəxslər bildiriblər ki, haram yolla var dövlət toplayan adamın ibadət etməsi anlaşılan deyil.

Lakin məsələ ilə bağlı ilahiyyatçılar fərqli fikirdədirlər. "Yeni Müsavat"a danışan **"Tövbə" cəmiyyətinin sədri Hacı Əbdül Əbdülov** bildirib ki, Ziya Məmmədovun bu əməli ancaq alqışlana bilər: "Hər bir insan səhvini anlayıb, tövbə edib, Allahdan bağışlanmasını istəyə bilər. Burada pis olan heç nə yoxdur. Ziya Məmmədov da əgər günahlarının bağışlanmasını istəyirsə, etdiyi səhvləri anlayırsa, bu halı yalnız alqışlamaq olar. Dediyi kimidirsə, kimsə hansısa iradı bildirə bilməz. Təbii ki, tövbə qapısı hər zaman açıqdır. Ən ağır günah etmiş insan belə tövbə edib, Allahdan bağışlanmasını istəyə bilər. Lakin namaz qılmaqla iş bitmir. İnsan gərək yaxşılıqlar da edə, imkansızlara yardım əli uzada. Belə olarsa, insanın günahlarını inşallah ki, Allah da bağışlayar. Bir daha bildirirəm ki, burada pis heç nə yoxdur".

"Yeni Müsavat"ın **dini yazarı Kənan Rövşənoğlu** da bildirib ki, hər kəs yanlış əməllərinə görə tövbə edib, Allahdan bağışlanmasını istəyə bilər:

"Hər kəs ömrünün bir vaxtında, nə zamansa tövbə edib. Adam var ki, ömrü boyu namaz qılır, ancaq nə zamansa günah işlədir və bu günahdan tövbə edir. Hətta hədislərdə var ki, tövbə etmək insanın imanı üçün çox yaxşı haldır. Çünki insanların günahları, xətaları çoxdur. Ziya Məmmədovun da tövbə etməsində qəbahətli bir hal yoxdur. O, müsəlman kimi vəzifəsini yerinə yetirir. Namaz qılmaq o deməkdir ki, sən müsəlman olaraq öz vəzifəni icra edirsən. Namaz savab iş deyil. Bu, özünə müsəlman deyən şəxsin boynunda olan öhdəlikdir. Bura eyni zamanda Həcc ziyarətinə getmək, oruc tutmaq, imkansızlara yardım etmək də daxildir. Ziya müəllim də müsəlman kimi vəzifəsini yerinə yetirir. Həmçinin onu da qeyd edim ki, müsəlmanın bir vəzifəsi namaz qılmaqdırsa, ikinci işi də odur ki, o, hala-harama riayət edə. Yəni malına haram qatmaya, oğurluq etməyə, yalan danışmaya. Müsəlman olmaq təkcə namaz qılmaqla deyil. Namaz qılmaq sadəcə olaraq ibadətdir. Ancaq eyni zamanda insanın dili, əli var ki, bunlara da nəzarət etməlidir. Yəni insan gərək həm də nəfsinə hakim olsun. Oğurluq edib namaz qılırsa bu, doğru hal deyil. Xalqın malını oğurlayıb, sonra da namaz qılmaq bir yerə sığmaz. Ancaq istənilən halda tövbə qapısı həmişə açıqdır. Hər kəs tövbə edə bilər. Biz də inanırıq ki, Allah tövbə edənləri bağışlayır. Tövbə etmək o deməkdir ki, insan etdiyi əməldən peşman olub. İnanmalıyıq və etiqadımız budur ki, tövbə edib və bir daha o əmələ qayıtmayan insanların Allah tövbələrini qəbul edir".

**K.Rövşənoğlu bildirib ki, biz o insanları ikrah edə bilmərik:**

"İnsanların keçmişini üzünə vurmaq olmaz. Bu, bizim üçün böyük günahdır. Allah bağışlayırsa, insanlar kimdir ki, onu bağışlamır. Günah da, tövbə də Allahla həmin insanın arasında olan məsələdir. Haqq, hüquq var. Etdikləri əməllərə görə ya buradakı, ya da o biri dünyadakı məhkəmədə cavab verməli olacaq. Ancaq bizim tövbə edən adama, onun dininə ikrah etmək haqqımız yoxdur".

❑ **Əli RAİS, "Yeni Müsavat"**



# Şadbala qadağası

Zamin HACI
zaminhaci@gmail.com

"-Adın nədir?
-Daşdəmir.
-Yumşalısan, yumşalı."

*(Azərbaycan ata sözü)*

**Nazirlər Kabinetindən məlumat verildi ki, bu il uca millətimizin uşaqlarına qoymaq istədiyi yeni adlar içində Qəhət adı varmış. Hər şeyin qəhətə çəkildiyi dövrdə, təbii ad kimi görünür. Məsələn, mənim yadıma gəlir, bizdə Baha adlı şəxs də var idi. Ancaq o şəxs müxalifətçi idi və bəlkə özünə qəsdən, dövlətimizi sarsıtmaq, xaricdə yanlış təsəvvürlər oyatmaq üçün o cür ad seçmişdi. Ona görə də hökumət orqanları uşağa Qəhət adı qoymağa icazə verməmişdir. İndi AXC-Müsavat dövründəki dərəbəylik deyil, hərə özünə kefi istəyən adı götürüb təxribat yaysın, ekstremizm eləsin. Biri deyirdi mən millətin elçisiyəm, o biri deyirdi bozqurdam, üçüncüsü qartal olurdu, nə bilim, dördüncüyə hinduşka deyirdilər... Şükür, o pis yüzillikdən canımız qurtardı. A kişi, gecələr gəzməyə çıxmaq da olmurdu. Dəhşət idi. Bir dənə parkda müasir işıq dirəyi tapmırdın gedib altında çömbələsən.**

Sevindirici haldır ki, idarənin məlumatında icazə verilən yeni insan adı tamamilə ümidlərimizi doğruldur, işıqlı sabahlarımızdan xəbər verir, geopolitik liderliyimizi rövnəqləndirir, bizi qələbələrə şövqləndirir, asudə vaxtımızı zövqləndirir, hallarımızı fövqləndirir və sairə. (Axırıncıları qafiyə üçün yazdım, mənası-zadı yoxdur - o biri cümlələrimdən fərqli olaraq). Adlar siyahımıza yeni girmiş həmin ad Qəlbiyə imiş. Bunu hansısa yaradıcı təfəkkürlü azərbaycanlı uşağına qoymuşdur. Necə gözəl addır... Burada həm qəlb sözü, həm də qəlbi sözü ifadə edilmişdir. Bildiyiniz kimi (hər halda özünüzü elə aparın, qorxmayın, mən oxucularımı satmıram) qəlbi - yuxarı, yüksək, hündür deməkdir. Hazırda bizim qəlbiyə, kosmosun dərinliyinə qalxmış ən azı iki peykimiz orbitdə şırımlar açırsa, niyə özümüzə müvafiq adlar qoymayaq? Halal olsun. Ümid edirəm Eldar müəllim də Metro Tağının pullarını qaytaracaq.

Ümumiyyətlə, respublikamızda aparılan dinc quruculuq işləri hərtərəfli dizayna malikdir. Təzəlikcə paytaxt polisi vətəndaşlara müraciət etmişdi, deyir balkonlara, həyət-bacaya paltar asmayın, pis görünür. Bunun ardıyca paytaxt icra hakimiyyəti də dükançılara vitrinləri yaş əski ilə silməyi, köşkün qabağında gül-çiçək əkməyi tapşırdı. Yaxşı ideyalardır. Doğrudan da, bəzən paytaxtımızda ipdən asılan tuman-köynəyin əlindən gələcəyə addım atmaq mümkün olmur. Özü də bu paltarlar barı milli dəyərlərimizə söykənən nimtənə, qaftan, çəpkən, yaşıl tuman, qırmızı qofta olsa dərd yarıdır. Hərdən paytaxda eyvandan asılmış elə darbalağa rast gəlirsən sanki düşmən bayrağının trikolorudur. İndi paytaxtın əsas problemi bunlardır. Əlbəttə, ipləri yığışdırıb dükanın pəncərəsindəki at tüpürcəyini silindən sonra paytaxtda böyük şəhər bələdiyyəsi yaradılması mümkün olacaqdır. Hamısı mərhələli problemlərdir. Düzgün paltar asa bilməyən topluma bələdiyyə, yerli özünü idarəetmə etibar eləmək düz olmazdı. Bunlar gedib bələdiyyəni də zibilləyər. Zibil demişkən, bu yaxında bir maraqlı dəyişiklik gördüm. Xaləddin müəllim icra başçısı olanda hər yerə "Təmiz Binəqədi" şüarı yapışdırmışdı. Onun yerinə qoyulan icra başçısı isə "Rayonumuzu təmiz saxlayaq!" sözlərini yazıbdır. Məncə, bu da yeni idarəçilik, yeni düşüncə, gələcəyə müasir baxış deməkdir! Yoxsa sən də qabaqkı şüarı dəyişmədən saxla, daha bunun nə mənası oldu? Biz Ermənistanda yaşamırıq ki, 20 ildir İrəvanın Teatr meydanının tinində eyni RAF dursun...

**İyun ayında qoyulması dövlət tərəfindən qadağan edilən bəzi adlar isə məndə sual doğurdu, narahatçılığıma səbəb oldu, hətta bir qədər, üzr istəyirəm, qarnım ağrıdı. Fikir verin, idarə millətə öz uşağına Seçən, Namizəd, Şadbala, Sağyaşar, Qənaət adlarını qoymağa icazə verməmişdir. Yaxşı, hesab edək Seçən və Namizəd adları üçün Məzahir müəllimdən, MSK-dan imza vərəqəsi alınmayıbdır, mamaçanın barmağına isə ultrabənövşəyi mürəkkəb yaxılmayıbdır. O cümlədən, tibbi vəziyyətə baxsaq Sağyaşar adı da çox yersiz nikbin görünür, uşağı aldatmaq təsiri bağışlayır. Bəs Qənaətə niyə qadağa qoyulub? Bu ki lap iqtisadi addır, sosial siyasətimizə, büdcə vəsaitlərinin istifadəsinə uyğundur! Hələ Şadbala... İndi şad olmayıb haçan olaq? Hər yan şadlıq sarayıdır, camaat bulvarda dombalaq aşır, haçan kinoya getsən komediya göstərilir. Bu məsələyə yenidən baxılmalıdır.**



# Kreml İrəvana ağır şərt qoydu - "Cücələr payızda sayılacaq..."

## Moskva Ermənistana pressinqi artırır; Paşinyanın Ruhaniyə qəfil zəngini zəruri edən səbəblər; işğalçı ölkə böhran zolağında; amerikalı dünyaca məşhur iqtisadçı İrəvana gəlməkdən imtina etdi - motiv...

**Ermənistanın baş nazir Nikol Paşiynanın 1 il 2 ay öncə öz xalqına vəd etdiyi sistemli islahatlar, xoş güzəran, kütləvi iş yerləri elə quruca vəd olaraq da qalır. Rusiyanın boyunduruğu və yarım-blokada şəraitində olan vassal ölkədə bunun mümkünsüzlüyünü artıq Avropada da, ABŞ-da da anlayıblar. Bircə Paşinyan öz xalqını hələ də quru vədlərlə "yedizdirməyə" çalışır. Ermənilərə isə indi vəd yox, çörək lazımdır.**

**Yeri gəlmişkən, dünyaca tanınmış erməni əsilli iqtisadçı-alim Taron Acemoğlu Ermənistan hökuməti ilə əməkdaşlıqdan və İrəvana gəlməkdən qəti şəkildə imtina edib. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə politik.am portalı yazıb.**

*****

Yada salaq ki, hələ təxminən bir il öncə N.Paşinyan amerikalı iqtisadçı ilə əlaqə saxlayaraq Ermənistana dəvət etmişdi. O vaxt Paşinyan telefon danışığının nəticəsi ilə bağlı özünün facebook səhifəsində belə yazmışdı: "O, mənə dedi ki, Ermənistanın bərpası və iqtisadiyyatının inkişafına kömək etməyə hazırdır. Cənab Acemoğlu Ermənistana baş çəkməklə bağlı mənim dəvətimi qəbul etdi. Səfərin vaxtı yaxın zamanlarda dəqiqləşdiriləcək".

Baş nazirin müavini Tiqran Avinyanın ofisinin rəhbəri Viraq Sisseryan isə keçən ilin iyulunda bildirmişdi ki, Taron Acemoğlu bir neçə günlüyə - 10-20 avqust (2018) arası Ermənistanda olacaq: "Biz səfərin variantları kimi avqust ayını müzakirə edirik. Bu, ehtimal ki, 10-20 avqust arası baş tutacaq. Səfər 4-5günlük olacaq. Biz cənab Acemoğludan qəti cavab gözləyirik".

Göründüyü kimi, üstündən 1 il keçsə də Acemoğludan xəbər yoxdur. Deyəsən o, Ermənistan hökuməti ilə əlaqələrini yerli-dibli kəsib. Çünki bir ildə Ermənistanda nələrin baş verdiyini yəqin ki, amerikalı iqtisadçı alimin özü də fərq edib. Söhbət rəsmi İrəvanın Moskvaya yaxınlaşma kursu seçməsindən, dərin islahatlar üçün zəruri olan digər şərtlərin təmin olunmamasından, o sırada blokada rejiminin götürülməsi yönündə heç bir addımın atılmamasından gedir.

Başqa sözlə, artıq Acemoğlu da yəqinlik hasil edib ki, mövcud şərtlərlə, Paşinyanın boş ritorikası əsasında işğalçı ölkədə heç bir iqtisadi islahat, ölkəyə böyük xarici sərmayələrin cəlb olunması mümkün deyil.

"Görünür Acemoğlu Paşinyan hökumətinin iş stilini və atdığı addımları diqqətlə analiz edəndən sonra başa düşüb ki, onun gəlişi heç bir müsbət nəticə verməyəcək. Öz yaxın ətrafına isə o deyib ki, həqiqətən Ermənistana kömək eləmək niyyəti olub, ancaq adının uğursuzlarla hallanmasını istəmir. O, dünyaca tanınmış iqtisadçıdır və Ermənistan hökuməti ilə əməkdaşlıq onun nüfuzuna xələl gətirə bilər". Bunu da yuxarıda adı çəkilən erməni saytı yazıb.

Məlumat üçün bildirək ki, Taron Acemoğlu dünyanın 10 ən tanınmış iqtisadçı-alimindən biridir. O, İstanbulda, Türkiyə ermənisinin ailəsində doğulub. Uşaqlığı Türkiyədə keçib. Ali iqtisadi təhsilini Böyük Britaniyada alıb. Özü də ona aqressiv erməni millətçiliyi və türkofobiya yaddır. Hər halda o, Türkiyə dövlətinə hörmətlə yanaşır.

*****

Əfsus ki, özünü demokrat adlandıran Nilkol Paşinyanın dönəmində də Ermənistanda Türkiyə və Azərbaycana nifrət, türkofobiya azalmayıb. Halbuki dəfələrlə qeyd elədiyimiz kimi, Ermənistanın nicatı və inkişafı ilk növbədə bu iki qonşu ilə anlaşıb blokadanı götürməkdən və dinc-yanaşı yaşamaqdan keçir. Əks halda, erməni xalqının müsibətləri bitməyəcək, ölkədən kütləvi köç dayanmayacaq.

Bu da növbəti fakt: bu günlərdə Ermənistanın enerji sistemində indiyədək görünməmiş qəza baş verib, ölkə, o cümlədən paytaxt İrəvan zülmətə qərq olub, fövqəladə vəziyyət elan olunub. Onsuz da dolanışıq dərdi çəkən əhali üstəlik, təlaş keçirib. Qəzanın səbəbləri bilinmir.

Bütövlükdə işğalçı ölkənin energetik sferası da başqa sferalar kimi fəlakətli durumdadır. Rusiyanın satdığı qazın bahalaşacağından ehtiyatlanan Paşinyan hökumətinin son günlər alternativ qismində İran qazı axtarışına çıxması və Tehran rəsmiləri ilə intensiv təmaslara keçməsi də diqqət çəkməyə bilməz. Bu məqsədlə baş nazirin köməkçisi Mqer Qriqoryan ötən həftə Tehranda olub, prezident Həsən Ruhani ilə görüşüb.

İyulun 10-a isə N.Paşinyanla H.Ruhani arasında birincinin təşəbbüsü ilə telefon danışığı olub. Maraqlıdır ki, telefon zəngi Ermənistanın enerji sistemindəki qəzadan bir neçə saat sonra baş tutub. Bununla bağlı 1 in.am portalı iki məqama xüsusi diqqət ayırıb.

"Yeni Müsavat"ın məlumatına görə, şərhdə deyilir: "Əvvəla, Qriqoryan səfərdən sonra bəyan edib ki, İrəvan İrandan qaz almaq və bunun qarşılığını əmtəə ilə ödəməklə bağlı müzakirələrə başlayıb. Bunun ardınca Paşinyanın Ruhani ilə telefon söhbəti diqqət çəkir. İkinci məqam isə odur ki, telefon danışığı Ermənistanın enerji sistemindəki qəzadan bir neçə saat sonraya təsadüf edib".

Yəni məqalə müəllifi bununla qəzada Rusiyanın "barmağı" ola biləcəyinə işarə edir. Ehtimal ki, Moskva Rusiya qazına alternativ axtaran İrəvana bu yolla xəbərdarlıq edib. Erməni portalı da vurğulayır ki, böyük hesabla enerji sistemindəki qəza Rusiyanın Ermənistana, hətta təkcə Ermənistana yox, İran-Ermənistan əməkdaşlığına təhdid kimi qiymətləndirmək lazımdır.

*****

Bu arada Moskvadan İrəvana daha bir təhdid gəlib. Belə ki, "İrates" qəzeti bir neçə gün öncə Slovakiyada Rusiya və Ermənistan xarici işlər nazirləri - Sergey Lavrov və Zohrab Mnatsakanyanın ATƏT XİN rəhbərlərinin toplantısı çərçivəsində ikitərəfli görüşün heç də rahat keçmədiyini yazıb: "Lavrov erməni nümayəndə heyətinin AŞPA-da Rusiyanın təşkilata qayıtması barədə sənədə səs verməməsindən, ondan qabaq isə BMT Baş Məclisində Gürcüstanla bağlı Rusiya əleyhinə olan qətnamənin səsverməsinə Ermənistan təmsilçisinin qatılmamasından məyusluq ifadə edib. Lavrov həmçinin Vladimir Putinin Ermənistana oktyabrın 2-ə nəzərdə tutulan səfəri ilə bağlı Ermənistana işarə vurub ki, səfər baş tutana kimi Köçəryan həbsdə qalmamalıdır".

**Bu da Moskvanın Nikola növbəti şərti. Həm də ağır şərti. Çünki Köçəryanın zindanda qalması Paşinyan üçün prinsip məsələsi, hətta olum-ölüm məsələsidir və yəqin ki, ən azı, Dağlıq Qarabağda növbəti (2020) qondarma "prezident seçkisi"nədək onu zindanda saxlamağı hədələyib ki, separatçı rejimin başına öz adamını gətirsin. Oktyabr isə artıq havaların soyuması başladığı, təbii qaza, işığa ehtiyacın artdığı payız ayıdır. Belə görünür, Kreml də "cücələri" elə payızda sayacaq...**

❑ "Yeni Müsavat"ın analitik xidməti

YENİ MÜSAVAT
N 147 (7317) 13 iyul 2019

# Babacanın Ərdoğan yolu getmək şansı azdır

## Türkiyədə 20 ildən sonra mühafizəkar partiyadan ayrılma baş verir, Ərdoğan-Ərbakan münasibətləri bu dəfə Babacan-Ərdoğan münasibətlərinə çevrilə bilər

**Türkiyə gündəminin əsas mövzusu AKP-nin qurucularından olan Əli Babacan, Abdullah Gül və Əhməd Davudoğlunun hakim partiyadan ayrılıb yeni siyasi təşkilat qurmasıdır. Artıq Babacan AKP-dən istefa verib, yaxın aylarda onun yeni partiya yaradacağı gözlənilir. Abdullah Gül və Davudoğlunun isə sonrakı mərhələdə Babacana qoşulacağı və ya AKP-dən ayrılıb kənardan da ola dəstək verəcəyi haqda xəbərlər var.**

Bu xəbərlərə prezident Ərdoğan da reaksiya verib. Türkiyə prezidenti bu şəxsləri "ümməti parçalamaqda" günahlandırıb. Eyni zamanda uğur qazana bilməyəcəklərini deyib.

**Sitat:** "Mən Əli Babacan bəyin özünə də söylədim, yolunuz yolunuzdur, amma bu ümməti parçalamağa haqqınız yoxdur. Siz bunu edirsiniz. Bunun parçalanması ilə bir yerə gedə bilməyəcəksiniz".

Ərdoğan deyib ki, Babacanla bir qədər əvvəl görüşüb, ölkədəki və partiyadakı vəziyyəti müzakirə ediblər. Onun sözlərinə görə, Babacan partiya qurmağı düşünmədiklərini, amma bir platforma kimi fəaliyyət göstərəcəklərini deyib. Türkiyə prezidenti etiraf edib ki, Əli Babacanla daha əvvəl faiz mövzusunda *(Babacan həmin illərdə baş nazirin iqtisadi sahəyə cavabdeh müavini olub - K.R.)* anlaşa bilmədiklərini, eləcə də Gəzi parkı hadisələri zamanı onları mövqeləri "ciddi narahatlıq" yaradıb.

Ərdoğan ad çəkməsə də, jurnalistlərlə söhbətində Abdulla Gül və Davudoğlunu da tənqid edib. O deyib ki, vəzifəyə gələndə hər şey gözəl və yaxşı olduğu halda sonradan dəyişdi. Ərdoğan ad çəkmədən Gülün prezidentlikdən sonra yenidən AKP-yə üzv olmadığını xatırladıb.

Jurnalistlərin "bu şəxslərdən incidinizmi" sualına cavab olaraq Ərdoğan "bunlardan inciməyib, kimdən olacaq" deyə cavab verib və əlavə edib ki, bu inciklik yeni deyil. Ərdoğan söyləyib ki, bu şəxslər referendumda AKP əleyhinə səs veriblər. Eyni zamanda gözləsə də, hər 3 şəxsdən heç biri son İstanbul seçkilərində Binəli Yıldırıma dəstək çıxışı etməyib.


Ərdoğan


Əli Babacan

Qeyd edək ki, Əli Babacanın AKP-dən ayrılıb yeni partiya yaradacağı haqqında xəbərlər və Ərdoğanın reaksiyası geniş müzakirələrə səbəb olub. Bir çoxları təxminən 20 il əvvəl baş verənləri xatırladıb, Babacanın bir zamanlar Ərdoğanın Rifah Partiyası sonrası lideri Nəcməddinə Ərbakandan ayrılması ilə müqayisə ediblər. Hətta bunu taleyin gərdişi kimi qeyd edənlər də var. Bir çoxlarına görə, Babacanın indi etdiyinin bənzərini o zaman Ərdoğan Ərbakana qarşı etmiş, yeni partiya yaratmaqla Ərbakan ətrafındakı əsasən gənc və parlaq kadrları öz partiyasına - AKP-yə - çəkmiş və nəticədə AKP təkbaşına iqtidar olmuş, Ərbakan isə bir daha parlamentə düşə bilməmişdi.

Xatırladaq ki, Rəcəb Tayyib Ərdoğanın siyasi karyerasının 20 ildən çoxu Nəcməddin Ərbakanın rəhbərliyi altında keçib. Ərdoğanın siyasətə gəlişi 1976-cı ildə Nəcməddin Ərbakanın rəhbərlik etdiyi Milli Səlamət Partiyasına üzvlüyü ilə bağlayıb. Həmin il İstanbul Beyoğlu rayonunda və qısa müddət sonra isə İstanbul şəhər təşkilatının gənclərinin sədri seçilib. Ancaq 1980-ci ildə baş verən hərbi çevrilişdən sonra MSP bağlanır və Ərdoğan siyasi fəaliyyətini dayandırmalı olur. Lakin 1983-cü ildə Ərdoğan yenidən Ərbakanın qurduğu Rifah Partiyasına üzv olur. 1984-cü ildə Rifah Partiyası Beyoğlu rayon təşkilatının sədri, 1985-ci ildə isə İstanbul (vilayət) şəhər təşkilatının sədri və partiyanın Mərkəzi İdarə Heyətinin üzvü seçilir. 1986-91-ci illərdə deputatlığa namizəd olub. 1991-ci ildə seçilsə də, sonradan YSK nəticələri dəyişib və Ərdoğan deyil, başqa bir namizəd deputat olub. 1989-cu ildə Beyoğlu, 1994-cü ildə isə Rifah Partiyasından İstanbul şəhər bələdiyyəsi sədrliyinə namizəd olur və seçilir.

**1998-ci ilin yanvarında Rifah Partiyası bağlanır, ardınca isə Siirtdə oxuduğu şeir səbəbilə Ərdoğan bələdiyyə sədrliyindən uzaqlaşdırılır və 10 aylıq həbs cəzasına məhkum olunur.** 4 ay həbsdə qalan Ərdoğan azadlığa çıxdıqdan sonra yeni partiya yaratmağa çalışır və 2001-ci il avqustun 14-də AKP-ni təsis edən Rəcəb Tayyib Ərdoğan yeni partiyanın sədri, 2002-cü il seçkilərindən sonra isə təkbaşına iqtidar olan yeni partiyanın sədri kimi üzərindəki məhkumluq götürüldükdən sonra 2003-cü ildə Türkiyənin baş naziri olur.

**Ərbakan isə Rifah Partiyası bağlandıqdan sonra növbəti 4-cü partiyasını, Səadəti yaradır. Ancaq Türkiyə siyasi islamının babası artıq yaşlanmışdı, bu səbəbdən də Milli Görüş Hərəkatının lideri kimi qalır, partiyanın sədri isə Rəcai Kutan seçilir. Ancaq Türkiyədə uzun illər sağ mühafizəkar-dindar camiədə Ərdoğanın yeni partiya yaratması birmənalı qarşılanmayıb, zaman-zaman hətta mərhum Ərbakanın özü tərəfindən tənqid olunub. Eyni zamanda Ərdoğan özü də bir neçə dəfə AKP-nin Milli Görüş şinelindən çıxmış siyasi təşkilat olduğunu etiraf edib.**

Əli Babacanın AKP-dən getməsi müəyyən mənada oxşarlıqlar olsa da, ciddi fərqlər də var. Ən əsası da Babacanın siyasi səhnədə uğur qazanması o qədər də parlaq perspektiv vəd etmir. Çünki bu gündən fərqli olaraq 20 il əvvəl Rifah Partiyası bağlanmışdı, siyasi səhnədə ciddi boşluq vardı. Ərdoğan məhz bu boşluğu tuta bildi. İndi isə Babacanın ayrıldığı AKP Rifahdan fərqli olaraq iqtidar partiyasıdır, partiyanın sədri isə dövlət başçısıdır. Yəni Babacanın müstəqil siyasi karyerası həm də tərk etdiyi partiya ilə mübarizə şəraitində başlayacaq. Hər iki cəbhədə mübarizə aparmalı olacaq, həm qarşısındakı siyasi rəqiblərlə, həm də keçmiş partiyadaşları ilə. Üstəlik Ərdoğan da çox güclüdür.

**Bu mənada Babacanın 20 il əvvəlki Ərdoğan olması şansı xeyli azdır. Amma istənilən halda Türkiyə siyasətində yeni səhifə olacaq. AKP-dən və mühafizəkar elektoratdan dəstək alması gözlənilən Babacan Türkiyə siyasətində yeni mərhələyə keçidə səbəb olacaq.**

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Qərb mediası və təşkilatları hakimiyyətlə barışıbmı - rəylər

## **Fərəc Quliyev:** "Azərbaycanın və Qərbin bir-birinə indi daha çox ehtiyacı var"

## **Tural Abbaslı:** "Avropanın ən böyük məmuru Bakıya gəldi, demokratiya barədə heç nə demədi"


Fərəc Quliyev


Tural Abbaslı

**Son aylarda Qərb mediasından və beynəlxalq təşkilatlardan Azərbaycan hakimiyyətinə qarşı "səlib yürüşü" səngiməkdədir. Avropa mətbuatı və insan haqları təşkilatları mütəmadi olaraq iqtidarı sərt tənqid edir, neqativ motivdə hesabatlar yayırdı. Hakimiyyət insan hüquq və azadlıqlarını boğmaqda, medianın müstəqilliyini buxovlamaqda, siyasi həbslər həyata keçirməkdə ittiham edilirdi.**

Bu ilin yanvarından isə Qərb nəşrləri və təşkilatları tənqidlərə ara veriblər. Halbuki "Amnesty International", "Human Rights Watch", "Freedom House" kimi beynəlxalq təşkilatlar Azərbaycandakı ictimai-siyasi vəziyyətlə bağlı mütəmadi tənqidi hesabatlar yayırdı.

Müşahidəçilərin fikrincə, hakimiyyətlə Qərb mediası və təşkilatları barışmış kimi görünür. Bu nəticəyə hökumətin yanvardan başladığı müəyyən islahatların, 50-dən çox siyasi məhbusu azad etməsinin təsir göstərdiyi ehtimal edilir. Hətta Avropa İttifaqı rəsmi Bakını əfv fərmanına görə alqışlamışdı. Elə bu günlərdə paytaxtımıza gələn Aİ prezidenti Donald Tuskun prezident İlham Əliyevlə görüşü, Azərbaycan-Aİ əlaqələrinin inkişaf etdiyini söyləməsi göstərdi ki, Qərblə Bakı arasında buzlar xeyli dərəcədə "əriyib". Həmçinin ABŞ Dövlət Departamenti, Avropa Parlamenti, Avropa Şurası ilə hökumətin münasibətlərinin indi daha mülayim olduğu təsiri bağışlayır.

**Deputat Fərəc Quliyev** "Yeni Müsavat"a sadalanan faktorların hər birinin ayrı-ayrılıqda reallıq olduğunu qeyd etdi. Onun sözlərinə görə, bu hallar kompleks şəkildə öz təsirini göstərməkdədir. F.Quliyev hesab edir ki, Azərbaycanın və Qərbin bir-birinə indi daha çox ehtiyacı var: "Azərbaycan Qərblə münasibətlərində həm siyasi, həm iqtisadi baxımdan səmimi siyasət aparır. İqtisadi, ticari əlaqələr genişlənir. Azərbaycan Ermənistan kimi riyakar siyasət yürütmür və bunu Qərb dövlətləri, beynəlxalq qurumlar müşahidə edir. Digər tərəfdən, bu münasibətlərin inkişafından tərəflər qarşılıqlı şəkildə qazanır. Azərbaycan Qərb üçün əhəmiyyətli enerji bazarlarından biridir. Təbii ki, ölkədə gedən siyasi-sosial islahatlar, demokratiya səylərinin artırılması da öz təsiri göstərməkdədir".

**Lakin deputat Qərb mediasında Azərbaycanla bağlı qərəzli çıxışların tamamilə kəsiləcəyini düşünmür:** "Erməni lobbisi və bizə düşmən dövlətlər işləyir. Amma Qərblə iqtisadi siyasət dövriyyəsində Azərbaycan 50 faiz rəqəmlərlə özünü ifadə edir. Ona görə də Qərb mətbuatında işıqlandırılan, hesabatlarda qeyd olunan məsələlərə artıq əhəmiyyətini itirir. Saxta, yersiz, seleksiya siyasəti ilə üzərimizə gəlmələri azalıb. Amma bu, o demək deyil ki, tamamilə bu hallar kəsilib və bir daha olmayacaq. Sadəcə, Qərbdəki müəyyən dairələr bu yoldan Azərbaycana qarşı təzyiq kimi istifadə etmək istədilər, alınmadı. Çünki təzyiq alətinin rolu kiçilib".

**AĞ Partiya başqanı Tural Abbaslı** dünyada fəaliyyət göstərən insan haqları təşkilatlarını və nüfuzlu beynəlxalq media orqanlarını müstəqil hesab etəmir. Partiya sədrinin fikrincə, bu təşkilatlar və mətbu orqanları sadə insanların mövqeyindən çıxış etmir: "Guya ayrı-ayrı dövlətlərdə insan haqlarının məhdudlaşdırılması ilə bağlı hesabatlar hazırlayırlar. Əslində həmin təşkilatlar Qərbdəki dövlətlərin maraqlarına xidmət edir. Belə təşkilatların səmimiyyətinə heç zaman inanmamışam".

**T.Abbaslının sözlərinə görə, sadəcə, təsir rıçaqlarını və kompromatları təşkil etmək üçün vaxtaşırı hesabatlarla çıxış edirlər:** "Avropanın ən böyük məmuru Bakıya gəldi, ölkənin irəlilədiyini fəxrlə bildirdi. Donald Tusk demokratiya, azad seçki, sərbəst toplaşma azadlığı barədə heç nə demədi. Nə "ümumbəşər dəyərlərin keşikçisi" kimi özünü təqdim edən bu qüvvələrin səmimiyyətinə inanmamağa çağırıram. Hər bir xalq öz müqəddəratını özü həll etməlidir".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 147 (7317) 13 iyul 2019

# BNA-dan Masallıdakı "yol qətliamı" ilə bağlı ittihamlara reaksiya

## Qurum 8 nəfərin ölümünə səbəb olan sürücüyə yalnız Bakıda taksi işləməsi üçün "Fərqlənmə nişanı" verdiyini açıqladı

**Bakı Nəqliyyat Agentliyi Masallıda 8 nəfərin ölümünə, bir nəfərin yaralanmasına səbəb olan ağır yol-nəqliyyat hadisəsi ilə bağlı tənqid hədəfinə gəlib. Qurumun hadisəni törədən sürücü Mustafayev Nizami Malik oğluna "Fərqlənmə nişanı" verdiyi üzə çıxıb.**

Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin mətbuat xidmətinin rəhbəri Nuridə Allahyarova isə virtualaz.org-a bildirmişdi ki, Bakı Beynəlxalq Avtovağzalından kənarda sərnişin daşıma ilə məşğul olan Nizami Mustafayevin barəsində Dövlət Yol Polisi tərəfindən dəfələrlə cəza tədbiri də görülüb. Amma sürücü qeyri-qanuni fəaliyyətini davam etdirib.

Bu da ortada ciddi bir müəmma yaradıb. DANX sözçüsü onun qanunsuz sərnişin daşıdığını bildirib, BNA isə ona Bakı ərazisində taksi fəaliyyəti göstərməsi üçün lisenziya verildiyini açıqlayıb.

Bakı Nəqliyyat Agentliyinin mətbuat xidməti rəhbəri Mais Ağayev "Yeni Müsavat"a bildirdi ki, qurumun adından göründüyü kimi Bakı ərazisində fəaliyyət göstərir.

Onun sözlərinə görə, həmin sürücüyə Bakı ərazisində taksi işləməsi üçün "Fərqlənmə nişanı" verilib: "Ona minik avtomobili kimi qanuna uyğun şəkildə taksi fəaliyyəti göstərməsi üçün sənədlər verilib. Amma bizim səlahiyyətimiz yoxdur ki, həmin sürücüyə Quba, yaxud Şəki, Lənkəranda nəzarət edək. Bunun üçün müvafiq qurumlar var".



M.Ağayev qeyd etdi ki, N.Mustafayev iyulun 2-də "Fərlqənmə nişanı" almaq üçün müraciət edib: "Onun idarə etdiyi maşın mikroavtobus sayılmır. Özü də ərizəsində göstərib ki, mənə taksi fəaliyyəti üçün bu nişan verilib. Ərizə və ona əlavə edilən sənədlər nəzərdən keçirilib, normativ hüquqi aktların tələbləri əsas götürülərək Nizami Mustafayevə onun istəyinə uyğun müddətdə yalnız Bakı şəhərinin inzibati ərazisində "Mercedes Benz Vito 115" markalı, 99 LH 458 dövlət qeydiyyat nişanlı nəqliyyat vasitəsi ilə taksi fəaliyyətinin həyata keçirilməsi üçün "Fərqlənmə nişanı" verilib. Ona görə də bizi tənqid edənlər ilk növbədə qanunlarla yaxşı tanış olsunlar, sonra fikir bildirsinlər".

**M.Ağayevin sözlərinə görə, sürücünün Bakı şəhərinin inzibati ərazisi hüdudlarından kənarda bu "Fərqlənmə nişanı" ilə sərnişindaşıma fəaliyyəti ilə məşğul olması qanunsuzdur. O, sözügedən sürücünün qanunsuz sərnişin daşıma ilə məşğul olması ilə bağlı müvafiq strukturların tədbir görməli olduğunu açıqlayıb:** "İyulun 9-da baş vermiş ağır yol nəqliyyat hadisəsindən təəssüfləndiyimizi bildirərək, qəza nəticəsində həyatını itirənlərin yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə şağalmalarını azru edirik".

Qəza baş verən gün sürücünün həyat yoldaşı, bacısı və bacısının azyaşlı övladı da avtobusda olub. İddia olunur ki, Nizami Mustafayev maşını yüksək sürətlə idarə etdiyi üçün öz həyat yoldaşı maşından düşərək arxadan gələn qayınatasının avtobusuna minib.

Ailənin yaxınları müvafiq qurumlara müraciət edərək, bu kimi sürücülərə qarşı ciddi tədbirlər görülməsini istəyiblər.

Xatırladaq ki, "Mercedes" markalı 99 LH 458 dövlət qeydiyyat nişanlı minik maşını Astara istiqamətində hərəkətdə olarkən eyni istiqamətdə hərəkətdə olan "KamAZ" markalı 10-MG-329 dövlət qeydiyyat nişanlı yük avtomobilinə çırpılıb.

Nəticədə Bakı şəhərindən şadlıq mərasimindən qayıdan yaxın qohumlar aldıqları ağır bədən xəsarətlərindən hadisə yerində ölüblər.

Qəza baş verən zaman arxada daha bir avtomobildə ailənin digər qohumları da olub. Hadisə onların gözü qarşısında baş verib. Lakin həmin avtomobil qəzadan yayınıb.

**Ölən və yaralananlar Lerik rayonunun Kəlvəz kənd sakinləridir. Qəza nəticəsində ölən və yaralananların tam siyahısını təqdim edirik:**

Ölənlər

1. Tağıyev Əlizahir Atalı oğlu - 2002-ci il
2. Rzayev Əsgər Hikmət oğlu - 1983-cü il
3. Rzayev Hikmət Əsgər oğlu - 2002-ci il
4. Rzayev Azər Hikmət oğlu - 2008-ci il
5. Rufullayev Ayxan Natiq oğlu - 2016-ci il
6. Məmmədov Gültac Ələkbər oğlu - 1996-cı il
7. Məmmədova Aytac Ələkbər qızı - 1995-ci il
8. Məmmədov Elgün Ələkbər oğlu - 1997-ci il.

Yaralılar

1. Rzayeva Ruhiyyə Əkbər qızı - 1985-ci il
2. Tağıyeva Miranə Atalı qızı - 1995-ci il.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Azərbaycanın aqrar məhsullarını Rusiya sərhədindən geri qaytaran səbəblər

## **Ekspert Nicat Nəsirli:** "Ola bilər ki, karantin tədbirləri vaxtında yerinə yetirilmədiyinə görə güvə tipli zərərvericilər məhsula düşür"

## **Fikrət Yusifov:** "Rusiya bütün səhnələrdə özünün hegemonluğunu, qolunun gücünü göstərmək istəyir"

**Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidmətinin *("Rosselxoznadzor")* Dağıstandakı bölməsi Azərbaycana məxsus 118 ton kənd təsərrüfatı məhsulunun ölkəyə girişinə qadağa qoyub. Xəbərə görə söhbət 32 ton pomidor, 53 ton gilas, 20 ton noxud və 13 ton çiyələkdən gedir. Bununla yanaşı, Rusiya tərəfi Gürcüstandan şaftalı, İrandan isə bibər idxalına qadağa qoyulub.**



"Rosselxoznadzor" nümayəndələri qadağaları məhsullarda zərərvericilərin aşkar edilməsi ilə izah edib. Qeyd edək ki, son zamanlar Rusiya bu tipli addımlarını intensivləşdirib, vaxtaşırı olaraq kənd təsərrüfatı məhsullarını sərhəddən geri qaytarır. Müxtəlif ekspertlər Rusiya hökumətinin bu davranışına fərqli qiymət verirlər.

Son vaxtlar Rusiya özü də ən çox tələbat olan kənd təsərrüfatı məhsullarının istehsalına başlayıb, ancaq bu hələ ki, ölkə əhalisinin tələbatını ödəyəcək həddə deyil. Lakin buna baxmayaraq, ölkəsinin fitosanitar vəziyyətini qorumaq üçün zərərvericilərin aşkarlandığı məhsulları sərhəddən buraxmır.

**Burada qərəz faktorunun olması da müzakirə olunan məsələdir. Çünki Rusiyanın dəfələrlə siyasi qalmaqalları əsas bir çox ölkələrə pomidor qadağası tətbiq etməsi heç kimə sirr deyil.**

Kənd təsərrüfatı sahəsi üzrə ekspert Nicat Nəsirli bildirdi ki, bu məsələ analitik təhlil tələb edir və aqrar məhsula tələbin həddin artıq yüksək olduğu nəzərə alsaq, Rusiyanın qərəzli olaraq belə bir addım atması ehtimalı azdır: "Rusiyada istehsalın nə qədər artdığını və idxaldan asılılığın hansı dərəcədə azaldığını öyrənmək üçün müvafiq rəqəmlər olmalıdır. Ancaq Rusiya hökuməti bu addımları karantin vəziyyətə nəzarət və ölkənin fitosanitar durumunu qorumaq üçün atdığını bildirir. Rusiya bir çox ölkədən məhsul idxal edir, hər ölkədən bir zərərverici gəlsə, bu ölkənin fitosanitar durumu nə vəziyyətə düşər. Rusiyanın vəziyyəti hazırda elədir ki, qərəz etmək durumunda deyil, çünki 200 milyondan artıq vətəndaşı var. Orada aqrar məhsullara böyük tələbat var. Problem ondan ibarətdir ki, Rusiya bazarını Cənubi Amerika ölkələri ələ keçirmək istəyir. İran bu istiqamətdə çox böyük addımlar atır, xüsusən də tərəvəzçilik sahəsində iş aparılır. Son illər İrandan müasir texnologiya ilə becərilən tərəvəz məhsulları sahələrini artırırlar. Məqsəd Rusiya bazarını ələ keçirməkdir. O baxımdan mən hesab etmirəm ki, burada qərəz var".

**N.Nəsirli bildirdi ki, Rusiyanın təbii iqlim şəraiti orada məhsulun bizdən tez yetişməsinə imkan vermir:** "O mənada biz Rusiyadan daha çox üstünlüyə malikik, bizdə məhsul tez yetişir. Mən yanvar ayında Rusiya bazarlarında müşahidə aparmışdım, orada Azərbaycandan getməyən məhsullar belə bizim ölkənin adı ilə alıcılara təqdim olunur. Çünki Azərbaycan məhsullarına tələbat böyükdür. Mən hesab etmirəm ki, burada qərəz ola bilər. Əksərinə Tacikistan və Özbəkistandan gələn məhsulları Azərbaycan məhsulu adı ilə təqdim edirlər və çox yaxşı da sata bilirlər. O qədər böyük bir dövriyyədə, hansı məhsulun Azərbaycana aid olub-olmamasını təyin etmək də mümkün deyil. Ola bilər ki, bizim qapalı şəraitdə istixanalarda yetişdirilən məhsullarla bağlı karantin tədbirləri vaxtında yerinə yetirilmədiyinə görə güvə tipli zərərvericilər məhsula düşür. Kök hissədə inkişaf edir, sonra meyvəyə inteqrasiya edir. Mümkündür ki, meyvədə güvə olsun".

Ekspert vurğuladı ki, bu məsələyə Qida Təhlükəsizliyi Agentliyi nəzarət etməlidir: "Qaydalara görə, ölkəyə daxil olan və ölkədən çıxan bütün məhsullar karantin nəzarətindən keçməlidir və bu işi AQTA-nın gömrük keçid məntəqələrində fəaliyyət göstərən xidməti həyata keçirir. Bu mənada bu məsələyə AQTA münasibət bildirməlidir ki, bu məsələdə qərəz varmı? Bizim üçün də maraqlıdır ki, əgər məhsulda karantin zərərvericiləri varsa, o hansı tipli zərərvericilərdir. Ola bilər ki, Rusiya elə bir karantin zərərvericisinin adını çəkər ki, o ümumiyyətlə Azərbaycanda yoxdur".

**İqtisadçı ekspert Fikrət Yusifov** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Rusiya bütün səhnələrdə özünün hegemonluğunu, qolunun gücünü göstərmək istəyir: "Rusiyanın bu addımı iqtisadi əməkdaşlıq etdiyi ölkələrə daha çox təzyiq vasitəsidir. Belarusiya və Rusiya ittifaq dövlətidir, ittifaq dövləti olduqdan sonra dəfələrlə Belarusiya prezidentinin Rusiyanın siyasətini tənqid etdiyi bir çıxışa görə, dərhal bu ölkədən ətin, südün və digər kənd təsərrüfatı məhsullarının idxalına qadağalar qoyub, müxtəlif bəhanələrlə dayandırıblar. Bu ancaq təzyiqdir. Rusiya hər kəsin onunla hesablaşmaq zorunda olduğunu göstərməyə çalışır".

**İqtisadçının sözlərinə görə, Rusiya bunu təkcə Azərbaycanın Qarabağ problemini, Gürcüstanın və Ukraynanın torpaq problemini həll etməklə yox, eyni zamanda digər iqtisadi rıçaqlarla göstərmək istəyir:** "Azərbaycan ixracı şaxələndirməlidir, Rusiyanın ipinin üzərinə odun yığmaq olmaz, onlar istədikləri vaxt kəndiri çəkə bilərlər. Biz ilk növbədə kənd təsərrüfatı məhsullarının ixracı üçün yeni bazarlar tapmalıyıq. İxracın şaxələndirilməsi üçün ciddi iş aparılmalıdır, Avropaya və ərəb ölkələrinə üz tutmalıyıq. Bu istiqamətdə dövlət də iş adamlarına dəstək olur, ixracın təşviqi çün iş aparılır. Ancaq hələ ki, biz Rusiya bazarından asılıyıq. Bunu optimallaşdırmaq lazımdır ki, ixracın qarşısına süni sədlər çəkiləndə pis vəziyyətdə qalmayacaq. Başqa idxalatçılarımız da olmalıdır ki, məhsullarımızı onlara sata bilək".

❑ **Nərgiz LİFTİYEVA "Yeni Müsavat"**



# Həlli uzanan Qarabağ konflikti işğalçını yeni problemlərə tuş edib

## Öz xoşbəxtliyini başqa xalqın bədbəxtliyi üzərində qurmağa çalışan bədnam qonşular çıxılmazda; **erməni politoloq:** "Azərbaycanla savaşın ortasında enerji problemi ilə üzləşsək..."

**Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiasından doğan Dağlıq Qarabağ probleminin həllinə Qərbin və onun əsas qurumlarının yanaşması sözsüz ki, Azərbaycan üçün mühüm önəm kəsb edir. Təqdiredici haldır ki, bu mövqe müəyyən çatışmazlıqlara rəğmən, bizim milli maraqlarımızla əsasən üst-üstə düşür. Çünki həmin yanaşma beynəlxalq hüququn təməl prinsiplərinə, ölkələrin suverenliyi və ərazi bütövlüyünə hörmət prinsipinə köklənir. Bu mövqe ermənilərin və erməni lobbisinin bütün cəhdlərinə baxmayaraq, beynəlxalq təşkilatların sənədlərində əksini tapıb.**




O ayrı məsələ ki, Ermənistana münasibətdə işğalçı kimi davranıb ona qarşı layiqli sanksiyaların tətbiqinə rəsmi Bakı hələ ki nail ola bilməyib. Bunun da səbəbi təəssüf ki, gizli-açıq xristian təəssübkeşliyi, Rusiya faktoru, böyük güclərin ermənilərdən maşa kimi istifadə etmək istəyidir. Ancaq enində-sonunda gerçək çətin də olsa, üzə çıxır, erməni yalanları ermənilərin köməyinə gələ bilmir.

Bunu Avropa İttifaqı Nazirlər Şurasının prezidenti Donald Tuskun və NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali komandanı, general Tod Uoltersin təzəcə başa çatan Bakı səfərləri bir daha təsdiqlədi. Avropanın ən böyük təşkilatı sayılan Avropa İttifaqının 1-ci şəxsinin və dünyanın ən böyük hərbi-siyasi alyansı olan NATO-nun yetkilsi Bakıda təmsil elədikləri təşkilatları adından ölkəmizin ərazi bütövlüyünü dəstəklədiklərini bəyan elədilər.

Cənab Tusk İrəvanda olarkən də təxminən eyni mövqeyi sərgilədi, ermənilərin separatizmə haqq qazandırmaq üçün istifadə etdikləri "öz müqəddəratını təyinetmə" haqqından söz açmadı. Bununla da erməniləri pərt və məyus elədi. Bu kimi bəyanatların fonunda işğalçı tərəfin münaqişənin mahiyyətini öz maraqlarına uyğun təhrif edib dünya ictimaiyyətinə sırımaq cəhdləri absurd görünür. Necə ki, Ermənistan xarici işlər naziri Zohrab Mnatsakanyan bu günlərdə ATƏT-ə üzv ölkələrin nazirlərinin Slovakiyada keçirilmiş qeyri-formal görüşündə çıxışı zamanı Dağlıq Qarabağ münaqişəsinin ölkələrə deyil, insanlara aid olduğunu və orada yaşayanların, yəni ermənilərin insan hüquqlarının müdafiə olunmasının vacibliyini bildirib.

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) ona layiqli cavabı gecikməyib. XİN-in Mətbuat xidməti idarəsinin rəhbəri Leyla Abdullayeva deyib ki, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində insan hüquqlarından bəhs edən Ermənistan naziri əgər ATƏT məkanında insan hüquqları və demokratik dəyərlərin qorunması ilə bağlı söylədiklərinə həqiqətən inanırsa və bu xüsusda real işlər görmək istəyirsə, o zaman hələ də Ermənistanın silahlı qüvvələrinin hərbi işğalı altında saxlanılan Dağlıq Qarabağ və yeddi ətraf rayonumuzda etnik təmizləməyə məruz qalaraq əzəli torpaqlarından, mülklərindən didərgin salınmış yüz minlərlə azərbaycanlı məcburi köçkünün fundamental insan hüquqlarının kobudcasına pozulması məsələsini gündəmə gətirməlidir.

"İnsan hüquqları universal xarakter daşıyır, bölünməzdir və bu məsələdə hər hansı şəkildə ayrı-seçkiliyə yol verilməməlidir. Dağlıq Qarabağın erməni icmasının insan hüquqları məsələsini qaldıran erməni naziri, bu bölgənin azərbaycanlı icmasının öz evlərində yaşamaq hüququnun kobudcasına pozulduğunu niyə dilə gətirmir? Əlbəttə, bu sualın cavabı bizə və bütün beynəlxalq ictimaiyyətə bəllidir. Bir qrup insanın hüquqi digər bir qrupun hüquqlarının pozulması hesabına təmin oluna bilməz. Yalnız Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunması və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması, münaqişənin həlli ilə əlaqədar bir sıra substantiv məsələlərin, eləcə də Dağlıq Qarabağın hər iki, azərbaycanlı və erməni icmasının sülh şəraitində birgə yaşayışı və hüquqları məsələsinin həllinə əlverişli şərait yarada bilər", - XİN rəsmisi vurğulayıb.

*****

**Ermənilərin faciəsi də ondadır ki, öz xoşbəxtliklərini qonşu xalqların bədbəxtliyi üzərində qurmağa çalışırlar.** Nəticədə özləri də xoşbəxtliyə qovuşa bilmirlər. İşğalçı ölkənin və onun olan-qalan əhalisinin indiki miskin və acınacaqlı durumu, Ermənistan adlı simvolik dövlətin itirilmiş suverenliyi və kölə durumu buna əyani sübutdur. Eyni zamanda, bu durum işğalçılıq, qəsbkarlıq siyasəti aparanlara, aparmaq istəyənlərə bir ibrət dərsidir.

Ermənistana gəlincə, qeyd edildiyi kimi, bu ölkə özünü təcavüzkar siyasətin altını bütün dolağı ilə çəkir. Son günlər orada yaşananlar, ağır sosial-iqtisadi durum azmış kimi, energetik sferada özünü göstərən böhran, ölkənin iki gün öncə qəfildən zülmətə qərq olması birbaşa və ya dolayısıyla məhz Qarabağa görə Ermənistana tətbiq edilən blokada rejimi ilə bağlıdır. Üstəgəl, işğalçı üçün nəfəslik rolunda olan İrana qarşı ABŞ-ın güclənən sanksiyaları, qonşu Gürcüstanla Rusiyanın münasibətlərinin daha da pisləşməsi düşmən tərəfin vəziyyətini bir az da qəlizləşdirməkdədir. Bunu erməni təhlilçiləri özləri də etiraf edirlər.

"İranın elektrik enerjisi sektorunda yaranan problemlər Ermənistanın təhlükəsizliyini təhdid edir və bu, ölkəmiz üçün çox təhlükəlidir". Bunu erməni politoloq Armen Zaxaryan deyib (teleqaraf.com). Ekspert son zamanlarda İrandan Ermənistana elektrik enerjisi satışında problemlərin yarandığını bildirib: "İranın enerjisi sistemində baş verən dəyişikliklər Ermənistan üçün çox təhlükəlidir. Əgər vəziyyət İranın energetika nazirinin dediyi kimidirsə, İran bu sahədə ciddi problemlərlə üzləşib və bu, heç də yaxşı deyil. Məlumdur ki, Azərbaycan ordusu aprel döyüşlərində pilotsuz uçan aparatlardan (PUA) istifadə etdi, bundan başqa onlar elektriklə işləyən cihazlardan istifadə etdilər. Ehtimal olunan bir savaşın ortasında enerji problemi baş versə, nə olacaq? Bu, Ermənistan silahlı qüvvələrinə ağır zərbə olacaq, modern silahlardan istifadə imkanlarını itirəcəyik. Buna görə Ermənistan rəhbərliyi məsuliyyət daşıyır".

*****

**Doğru, Ermənistan rəhbərliyi, Paşinyan hökuməti hər şeyə görə məsuliyyət daşıyır. Ancaq erməni xalqının düşdüyü ağır vəziyyətə, 30 ildir yaşadığı iztirablara görə ilk növbədə elə onun özü - qonşu xalqa qarşı əsassız ərazi iddiası ilə yaşayan, öz xoşbəxtliyini Azərbaycan xalqının bədbəxtliyi üzərində qurmağa çalışan erməni xalqı cavabdehdir. Bu gerçəyi anlamayınca ermənilər rifaha qovuşmayacaqlar...**




# Amerikalı ekspert: "ABŞ Ermənistanın təcavüzkar fəaliyyətini pisləməlidir"

**"Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalı dərhal dayandırılmalıdır". Bunu Azərbaycan və Transatlantik münasibətlər üzrə amerikalı ekspert Piter Teys Azernews-a müsahibəsində deyib.**

Ekspert qeyd edib ki, Azərbaycan Dağlıq Qarabağda silahlı münaqişənin həlli istiqamətində çox ehtiyatlı, praqmatik və ardıcıldır: "Dağlıq Qarabağ Azərbaycanın suveren ərazisidir. Tarixi mənbələr və arxeoloji tapıntılar onu göstərir ki, bu region Azərbaycan millətinin və iqtisadiyyatının ürəyi hesab olunur. Bu münaqişə bütün Avropa, Mərkəzi Asiya və Yaxın Şərqdə təhlükəsizlik üçün ciddi fəsadlar törədə bilər".

**Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesinin təşviqi üçün zəruri olan addımlara gəldikdə isə P.Teys hesab edir ki, ilk növbədə Ermənistan qoşunları işğal olunmuş ərazilərdən çıxarılmalı və doğma yurdlarını tərk etmiş azərbaycanlı icmasının qayıtması üçün lazımi şərait yaradılmalıdır:** "Bu iki şərt günahsız azərbaycanlıların qanının axmasına səbəb olmuş 30 illik silahlı münaqişənin sülh yolu ilə nizamlanmasını təmin edəcək".

**Ekspert 2018-ci ilin sentyabrında Düşənbədə MDB sammiti çərçivəsində Azərbaycan və Ermənistan liderlərinin ikitərəfli görüşün baş tutmasını xatırladaraq deyib:** "Düşənbə razılaşması son 8 ay ərzində Ermənistan qoşunlarının azərbaycanlı dinc sakinlərə və əsgərlərə qarşı silahlı təxribatları səbəbi ilə dəfələrlə pozulub. Avropa İttifaqı və ABŞ Azərbaycanın işğal olunmuş ərazilərində cəzasız hərəkət edən Ermənistan qoşunlarının təcavüzkar fəaliyyətini aktiv şəkildə pisləməlidir. Misli olmayan susqunluq Azərbaycanın dinc sakinlərinə və hərbi postlarına atılan erməni gülləleri kimi bir bəladır".

YENİ MÜSAVAT
N 147 (7317) 13 iyul 2019

# Gürcüstandakı aksiyalarda azərbaycanlılar da iştirak edir

## Mahir Dərziyev: "Bu, bizim cəmiyyətimizin, ölkəmizin çox böyük nailiyyətlərindən biridir"

**İyulun 11-də Gürcüstanın paytaxtı Tbilisidə ölkə parlamentinin binası önündə aksiya bərpa olunub. Sayca 22-ci olan aksiyanın tələbi daxili işlər naziri Giorgi Qaxarianın istefasıdır. Aksiyada tribuna vətəndaşlara verilib.**

Məlumat üçün bildirək ki, parlamentin binası önündə bir neçə etirazçı aclıq aksiyasını 17 gündür davam etdirir. Onlar vəziyyətləri pisləşdiyindən aksiyanı dayandıra bilərlər. Gürcüstanda yaşayan və səfərdə olan Rusiya vətəndaşları da dəstək məqsədilə orada aksiya keçiriblər. Bəs azərbaycanlılar necə, soydaşlarımız bu aksiyalarda iştirak edirmi?

"Yeni Müsavat"a danışan **Gürcüstan Parlamentinin deputatı Mahir Dərziyev** bildirdi ki, Gürcüstan həm Azərbaycanın tərəfdaşıdır, həm də burada böyük azərbaycanlı icması var: "Ona görə də Azərbaycanda ən müxtəlif dairələdə Gürcüstana olan marağı normal hesab edirəm. Aksiyalarda azərbaycanlılar da iştirak edirlər. Ancaq onu deyim ki, bu, bizim cəmiyyətimizin, ölkəmizin inkişafının çox böyük nailiyyətlərindən biridir. Yəni mənim özüm də xeyli müddət müxalifətdə olmuşam. Mənə yaxşı məlumdur ki, Saakaşvili iqtidarı dövründə azərbaycanlıların və digər milli azlıqların siyasətdə iştirakı bir növ yasaq altında idi. Ancaq müəyyən yerlərə kimlərisə təyin edirdilər. Alternativsiz seçkilər keçirilirdi. Yəni bülletendə bir nəfər olurdu və ona da səs verirdik. Bizim Gürcüstanda olan bir çox nailiyyətlərimizlə yanaşı, insanların öz fikirlərini azad ifadə etmələri, mətbuat azadlığı və digər bu kimi məsələlər bütün dünya tərəfindən tanınır. Təbii ki, azərbaycanlılar da Gürcüstanın vətəndaşıdırlar. Gürcüstanda gürcülərdən sonra ən çoxsaylı icma azərbaycanlıların icmasıdır. Artıq soydaşlarımız əsl vətəndaş mövqeyi sərgiləyib, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Təbii ki, azərbaycanlılar arasında müxalifət partiyalarının üzvləri, fəalları da var. Bu, onların haqqı, vətəndaş hüquqlarıdır. İndiki aksiyalarda onlar da iştirak edirlər. Bizim siyasi opponentlərimiz çox təəssüf ki, vətəndaşların öz fikirlərini ifadə etmək, mitinq, nümayiş hüququnu tamamilə başqa siyasi məcraya yönəltmək istəyirlər. Bundan öz partiya mənafeləri üçün istifadə etməyi düşünürlər. Lakin bütövlükdə aksiyalar bizim insanlarımızın Gürcüstanda Rusiyanın işğalçılıq siyasətinə qarşı bir etirazının ifadəsi idi. Təbii ki, azərbaycanlılar da ölkənin vətəndaşı, Gürcüstan bayrağı altında həmişə sədaqətlə dayanan insanlar kimi bu anti-işğal mitinqinə qoşulmuşdular".

**M.Dərziyev söyləyir ki, son dövrlər aksiyaların dinamikası zəifləyib:** "Təşkilatçıların iç üzü artıq bəlli olub. Onlar insanları yanlış yola yönləndirərək, qanunverici orqanın binasını zorla tutmağa cəhd etdilər. Polis də üzərinə düşən vəzifəni icra edib, qanunun yol verdiyi vasitələrlə mitinqi sakitləşdirdi. Həmin zaman xeyli insan xəsarət aldı. Onlardan 80 nəfəri polis əməkdaşı idi. Getdikcə cəmiyyətə daha çox aydın olur ki, bu, hansı qüvvələrdir. Bu qüvvələrin məqsədləri də insanlara aydın olur. Yəni ölkənin milli, dövlət maraqlarına tamamilə zidd addımlar atırlar. Bu yaxınlarda teleməkandakı "söyüş qalmaqalı" da hər kəsə aydındır. Məsələ böyük təxribatlara hesablanmışdı. Rusiya müəyyən sanksiyalar tətbiq edir. Təkcə aviasiya əlaqələrinin dayandırılması Gürcüstana 500 milyona qədər ziyan vurur. Bizim opponentlərimiz çalışırdılar ki, bunun ardınca da yuxarıda qeyd etdiyimiz təxribatlar kimi hadisələr törədərək, Rusiyanın yeni sanksiyasının tətbiqinə nail olsunlar. Əgər sanksiyalar tam tətbiq edilərsə, Gürcüstanın iqtisadiyyatına 1.5 milyard dollar ziyan dəyə bilər. Bu, bizim iqtisadiyyatımızın çox bərbad vəziyyətə düşməsinə səbəb olardı. Az-çox tətbiq edilən sanksiyaların nəticəsi olaraq, Gürcüstanın milli valyutası da dollar qarşısında dəyərini itirdi. Bu da bir panika yaratdı. Lakin onu da deyim ki, artıq aksiyalarda çox az sayda adam toplaşır. İnsanlar artıq işin mahiyyətini anlayırlar".



❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Avropa Birliyi Cənubi Qafqazda fəallaşmağa çalışır

## Həsən Oktay: "Avropa Azərbaycanın ən çox gündəmdə saxladığı Qarabağ münaqişəsi üzərindən hərəkətliliyini artıraraq bölgəyə daxil olmaq istəyir"

**"Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli yoxdur". Bunu Avropa İttifaqı Şurasının sədri Donald Tusk Ermənistanda bəyan edib. BBC-nin məlumatına görə, çərşənbə günü baş nazir Nikol Paşinyanla birgə keçirdiyi brifinqdə deyib ki, hər iki tərəf "təmkinlilik göstərməli və real danışıqlara xidmət edəcək ab-havanın bərpasına çalışmalıdırlar.**

Qeyd edək ki, cənab Tusk İrəvandan əvvəl Bakıda olub və oxşar bəyanat verib. Prezident İlham Əliyevlə görüşü zamanı Tusk deyib ki, Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüquq və prinsiplərə uyğun olaraq yalnız siyasi yolla həll oluna bilər.

**Sitat:** "Aİ Azərvaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünü dəstəkləyir. Regionda sabitlik barədə söz açarkən, biz həmçinin həll olunmayan Dağlıq Qarabağ münaqişəsini müzakirə etdik. Hərbi yolla həll yoxdur, yalnız beynəlxalq hüquq və prinsiplərə uyğun olaraq sadəcə siyasi nizamlanma yolu var. Aİ Minsk qrpunun həmsədrlərinin səylərini və Helsinki Yekun Aktının prinsiplərinə əsaslanan ədalətli və davamlı nizamlanma istiqamətlərini tam dəstəkləyir".

Onun sözlərinə görə, Brüssel gərginliyin ümumi azalmasını dəyərləndirir. "Lakin həmsədrlər kimi biz də təmas xəttində bu yaxınlarda qurbanların olmasından narahatıq. Sülh və produktiv danışıqlar üçün səmərəli mühtin bərpasına imkan yaradan tədbirlərlə yanaşı təmkinli olmaq vacibdir. Aİ dəstəklənmə üzrə fəaliyyəti artıq dəstəkləyir və əhaliinin sülhə hazırlanması üzrə konkret tədbirlərə imkan yaratmağa hazırdır", - Tusk əlavə edib.

Eyni zamanda AB yüksək rəsmisi təmsil etdiyi qurumun sülh prosesinə dəstəyindən də danışıb. O, AB-nin sülhə hazırlıq üçün konkret tədbirlər görməyə hazır olduğunu deyib.



**Sitat:** "Biz ümumilikdə gərginliyin azalmasını yüksək dəyərləndiririk, lakin təmas xətti boyunca son itkilər həmsədrlər kimi bizi də narahat edir. Güc tətbiq etməmək üçün təmkinli olmaq önəmlidir, lakin eyni zamanda, sülhə və səmərəli danışıqların aparılmasına imkan verən ab-havanın bərpasına yönəlmiş tədbirlər də mühüm əhəmiyyət kəsb edir. Avropa İttifaqı artıq sülhün qurulmasına yönəlmiş fəaliyyətləri dəstəkləyir və xalqları sülhə hazırlamaq üçün konkret tədbirlərlə kömək etməyə hazırdır".

Cənab Tusk İrəvanda olarkən həmçinin qeyd edib ki, Avropa İttifaqı Minsk Qrupu həmsədrlərinin səylərinə yardım göstərməyə, Helsinki Yekun Aktının əsas prinsiplərinə əsaslanaraq, ədalətli və uzunmüddətli həll axtarmağa davam edəcək.

Müşahidəçilərə görə, Avropa Birliyinin Qarabağ münaqişəsinin həlli ilə bağlı açıqlaması əvvəlki illərdən bir qədər fərqlənib. Çünki adətən bir qayda olaraq AB Dağlıq Qarabağ münaqişəsinin həlli danışıqlarına müdaxilə etməyib. Bu münaqişə əsasən ATƏT Minsk Qrupu və 3 vasitəçi ölkənin - ABŞ, Rusiya və Fransanın - bir mənada inhisarında olub. Ancaq indi Avropa Birliyi rəsmisi münaqişənin həlli ilə bağlı daha konkret və real fikir bildirib, vasitəçilik təklif edib. Bu açıqlamalar nə ilə əlaqədardır? Avropa Birliyinin Qafqazda daha aktiv siyasət yürütməyə başlayır?

Mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlama verən **"Kafkassam" Strateji Araşdırmalar Mərkəzinin sədri Həsən Oktay** düşünür ki, bu açıqlamalar Avropa Birliyinin regionda fəal siyasət yürütmək planı ilə birbaşa əlaqəlidir. Ekspertin fikrincə, son dövrlərdə baş verənlər Avropa Birliyinin xüsusən də Cənubi Qafqaz regionunda aktivləşməsinin əlamətidir: "Avropa Birliyi son günlərdə dünyada strateji balansın dəyişdiyini əsas alaraq Qafqazda daha aktiv və təsirli siyasət aparmaq istəyir. Xüsusən də Ermənistanda hakimiyyət dəyişikliyindən sonra indi də Gürcüstanda anti-Rusiya ovqatının yüksəlməsi, Moskva əleyhinə küçə etirazları və televiziyadakı Putinə məlum təhqir bu bölgədə Rusiyanın mövqelərinin zədələndiyini göstərir".

**H.Oktay deyir ki, Avropa Birliyi bizim regionda aktivləşmək üçün hərəkətə keçib. Təbii ki, bu bölgənin ən həssas mövzusu olan Dağlıq Qarabağ münaqişəsinə diqqət də bununla bağlıdır:** "Ermənistan və Gürcüstan hadisələrindən sonra oxşar kütləvi hərəkətliliyi Azərbaycanda da yaratmağı Qərb gözə ala bilməzdi. Amma bunun əvəzinə Azərbaycanın ən çox gündəmdə saxladığı Qarabağ münaqişəsi üzərindən hərəkətliliyini artıraraq bölgəyə daxil olmağa çalışır. Qarabağ mövzusunda Rusiyanın təsiri və imkanlarını bildikləri üçün məhz burdan başlayırlar. Yəni Rusiyanın ilk növbədə Qarabağ münaqişəsindəki təsirini azaltmaq, ya da ən azı münaqişənin həllindəki yeganə vasitəçi olmadığını göstərməklə Qafqazda rol əldə etməyə çalışacaq".

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 147 (7317) 13 iyul 2019

# Sidiklə möcüzəvi müalicə: həkimlər urinoterapiyanın faydalarından danışdılar

## Bu müalicə üsulu hansı xəstəliklərə qarşı effektlidir, kimlərə olmaz?..

**"Sidiklə müalicə (urinoterapiya) hər şeyin fövqündə duran qədim müalicə növüdür. Ancaq düzgün istifadə edəsən gərək. Mən ailə üzvlərimi sidiklə müalicəsiz qoymuram". Qeyd edək ki, artıq bir neçə gündür ki, Xalq artisti Flora Kərimovanın medicina.az-a verdiyi bu açıqlama həm sosial şəbəkələrdə, həm də mətbuatda müzakirə olunmaqdadır.**

Xalq artisti onu da bildirib ki, artıq 20 ildir bu müalicə üsulundan istifadə edir və 10 yaşınadək olan uşaqların sidiyini qəbul edir. O urinoterapiyanın faydalarını belə ifadə edib: "Urinoterapiya bağırsaqları təmizləyir. Bütün xəstəliklər bağırsaqlardan gəlir. Beyinə çox yaxşı təsir edir. Bilirsiniz, xəstəlik elə bir şeydir ki, hansısa bir yerdə səni haqlayır. Ancaq o orqanın mərkəzi beyindədir. Əgər siz o orqanı müalicə edirsinizsə, mərkəz müalicə olunmursa, o xəstəlik mütləq qayıdır. Urinoterapiya məhz mərkəzə təsir edir. Həkimlər niyə bunun əleyhinədir? Qorxudurlar? Çünki urinoterapiyanın yolu ilə gedəndə adamlar hansısa mənfi fəsadla rastlaşır. Bədəni səpir və s. O saat qorxurlar, deyirlər olmaz, urinoterapiya bədənini zəhərlədi. Yox. Onu düzgün istifadə etmək lazımdır. O haqda məndən soruşurlar. Artıq 20 ildir nəticəsini bilirəm. Yəni 78 yaşıma çatmağımda bu terapiyanın rolu var. Övladlarıma da bunu edirəm".

**Qeyd edək ki, Flora Kərimova həm də ixtisasca həkimdir.** O, Azərbaycan Dövlət Tibb Universitetinin məzunudur. Bu səbəbdən müğənninin bu cür müalicə üslubuna üstünlük verməsi əksəriyyət tərəfindən inandırıcı qəbul edilib. Lakin bu üsulun əleyhinə çıxan mütəxəssislər də olub. Bəzi həkimlər indiki dövrdə bu müalicə üslubuna ehtiyac olmadığını vurğulayıb və qeyd olunub ki, ümumiyyətlə, bu üsulun tibbi baxımdan heç bir sübutu yoxdur.


Flora Kərimova


Seyfəddin Əsəd

Mövzu ilə bağlı təbii üsullara müalicə həkimi Seyfəddin Əsəd mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. Həkim sidiklə müalicəni möcüzə adlandırıb: "Sidiklə müalicə sadəcə, möcüzədir. Əgər dünyanın 5 möcüzəsi var - bal, sarımsaq, limon, zeytun. Bunların da hamısının cəmini hesablayanda sidiyə bərabər olur. Sidik həyat suyudur. Heç bir müalicə ona çatmır. Bütün xəstəliklərin müalicəsində, o cümlədən, saç və dırnağın tökülməsində istifadə olunur. Xüsusən də şəkər xəstələri üçün bu əvəzolunmaz müalicədir. Qızdırması olan uşaqlarda bu müalicə xeyli effekt verir və qızdırma aşağı enir. Lakin çox təəssüf ki, onu düzgün qəbul etmirlər. Ya olduğu kimi qəbul edirlər, ya da uşağınkını. Sidiyi ancaq aclıq fonunda qəbul etmək lazımdır. Bu zaman sidik qoxusuz, dadsız, təmiz olur. Əvvəlcə 50 qram, daha sonra tədricən miqdarını artırmaqla qəbul etmək lazımdır. Saçın yuyulması, oynaq ağırları, ayağa duz yığılması ilə bağlı xəstəliklərdə də effektlidir. Ayaq ağrıları zamanı ayağı iki saat sidikli vannanın içərisində saxlamaq lazımdır. Bunu gündə iki dəfə istifadə edəndə effektli olur".

Həkim onu da vurğuladı ki, bütün hallarda şəxsin öz sidiyi faydalıdır.

Mütəxəssislər qeyd edir ki, sidik orqanizmə yad məhlul deyil. Belə ki, sidik orqanizmin öz doğma maddələrindən təşkil olunduğu üçün təkrar olaraq orqanizmə daxil olduqda həll olmasına heç bir enerji sərfi lazım olmur. İnsan xəstə olanda onun sidiyi ilə hormonlar, fermentlər və digər lazımi maddələr də yuyub gedir. Belə xəstələrin normal sidik qəbulu həmin itkini doldura bilər.

Bədəndəki yara, yanmış sahə, zədəli yerlərə yaşlı adamın sidiyindən kompress qoyulur. Həmçinin bədəndəki duzları həll edir. Bunun üçün oynaqlar kompres olunur. Bədəndən qurdları, mikrobları tökür.

Qədim hind mənbələrində deyilir ki, yaxşı sidiyi almaq üçün metal olmayan, emallı və ya şüşə qaba 400 ml sidiyi alıb, orta odda 100 ml qalana kimi qaynadırlar. Beləliklə, sidiyin cəmi 4/1-i qalır. Məhz bu hissə müalicə üçün yararlıdır. Bu sidiklə mikroimalələr - hər dəfə 100 ml yeridilməklə - orqanizmi selik, şlak, duz, çöküntü, qurd, daş, toksin, zəhərlərdən təmizləyir. Bu sidik bütün daxili orqanlar, sidik kisəsi, cinsiyyət orqanları, qasıq, əzələ, bağlar, böyrəklər, mədəaltı vəz - bütün orqanlara yaxşı təsir edir.

Bəzi mütəxəssislər bildirir ki, sidikdən diş pastası, yaxalayıcısı əvəzi kimi də istifadə etmək olar. Dişləri sidiklə yaxalamaq mikrob, infeksiyaları öldürür, diş, damaq xəstəliklərini sağaldır, irini təmizləyir. Ən ağır xəstəliklərdə, adi qripdə belə aptekdən öncə sidiklə terapiya başlayır. Qida borusundan mədəyə düşdükdə selikli qişanı təmizləyir, sekretor hüceyrələri aktivləşdirir, turşu-qələvi mühiti yaxşılaşdırır. Mədə qastriti və xərçənginə səbəb olan helikobakteri pylori bakteriyasını öldürür, iltihab əleyhinə təsir göstərir.

**Lakin bəzi mütəxəssislər də bildirir ki, sidiklə müalicəni hər insan istifadə edə bilməz, bu mədə-bağırsağın vəziyyətindən asılıdır. Mədə-bağırsaqda hər hansı ciddi problem varsa, urinoterapiya zamanı vəziyyəti daha da ağırlaşdıra, zəhərlənməyə gətirib çıxara, hətta ölüm hadisələri də baş verə bilər. Odur ki, məsələyə ciddi yanaşmaq lazımdır. Buna görə də tövsiyə olunur ki, urinoterapiya həkim mədə-bağırsaq sistemini yoxladıqdan sonra, həkim məsləhəti ilə və xalq təbabəti ilə məşğul olan həkimlər tərəfindən həyata keçirilsin.**

❑ **Xalìdə GƏRAY,**
**"Yenì Müsavat"**

# Azərbaycanda gülçülərin günü-güzəranı...

## Yerli istehsalın önünü kəsən amillər

**Bir zamanlar Azərbaycanda qeyri-neft sektorunun inkişaf etmiş sahələrindən biri də gülçülük idi. Azərbaycan nəinki daxili bazarı yerli istehsal hesabına təmin edirdi, hətta xarici ölkələrə, keçmiş sovet respublikalarına gül ixrac edirdi. Hazırda isə bu sahə demək olar ki, sıradan çıxmaq üzrədir. Gül istehsalı ilə məşğul olan sahibkarlar bir-bir bu sahədən əllərini çəkirlər. Xərclərin artması, satış imkanlarının daralması və sair səbəblərdən artıq gülçülükdən mənfəət əldə etmək də çətinləşib.**

Bu sahədəki real vəziyyəti öyrənmək üçün həm gül istehsalı, həm də satışı ilə məşğul olan sahibkarlarla görüşüb, onların problemlərini dinlədik. Gül dükanlarından birinin sahibi bizə bu sahənin özəlliklərindən və problemlərindən danışdı.

Güllərin qiymətindən bəhs edən **satıcı Saleh Əliyev** bildirdi ki, ən çox tələbat olan Hollandiya qızılgülü 5 manata, yerli qızılgül isə 4 manatadır. Polivoylara və gerberlərə da tələbat yüksəkdir. Papatyaların 1 ədədi isə 4 manatdır. Dəbdən düşən güllərdən biri də qərənfildir, artıq bu gül yas və məzar gülü hesab olunduğundan sadəcə qəbir üstünə gedənlər qərənfil alır. Papatya və qızılgüldən ibarət orta hesablı bir gül buketi 15 manatdan başlayır, 20, 40, hətta 400 manata qədər davam edir. Satıcı deyir ki, son vaxtlar ən çox satdığı bahalı buketlərin qiyməti 400 manat olub. Bu isə 101 qızılgüldən ibarət bir gül dəstəsi imiş. Ən fantastik qiymətə satdıqları buketin dəyəri isə 1100-1300 manat olub".

**Satıcı deyir ki, ildən-ilə gül buketləri ilə bağlı dəb də dəyişir**: "Əvvəllər daha çox şəffaf rəngli kağızlarla buket hazırlamaq dəbdə idisə, indi taxta və karton qutularda gül səbəti düzəltmək daha çox dəbdədir. Burada şokolad da əlavə etmək olar. Əgər buket yeni ana olmuş qadına aparılırsa, kiçik yumşaq oyuncaqlar, şokolad və gülün harmoniyasından ibarət səbətlər hazırlanır". Hazırda bu cür sürprizli səbətlərin daha çox dəbdə olduğunu deyən satıcı, Azərbaycanda gül mədəniyyətinin qaldığını, xüsusən də özəl günlərdə bu fərqin nəzərə çapdığını bildirdi.

Son illər dibçək güllərinə tələbat artıb, uzunömürlü olması səbəbindən dibçək gülü hədiyyə etmək də dəb halını alıb. Ən çox sevilən dibçək gülləri isə orxideyalardır. Zərifliyi, qeyri-adi rəngləri ilə seçilən orxideyalar o qədər də ucuz deyil, qiyməti 45 manatdan başlayır. Digər dibçəklərin qiyməti isə 12 manatdan başlayır.

Dibçək güllərindən ən çox satılan həm də kaktuslardır. Onu alanlar isə əsasən ofislərdə işləyənlər, saatlarla kompüter qarşısında oturanlardır. Kaktusun kompüterin zərərli şüalarını udması ona tələbatı artırır.

Mağaza sahibi isə qeyd etdi ki, hazırda Hollandiyadan idxal edilən əksər gül növləri elə Bakı kəndlərində də yetişdirilir. Xüsusən də Zirə, Maştağa və Nardaran kəndləri gülçülük sahəsində ixtisaslaşıb. Yerli istehsal idxaldan bir qədər ucuz başa gəldiyindən daha sərfəlidir. Lakin Hollandiya güllərinin yerini , xüsusən də bu ölkədən gətirilən qızıl gülü heç nə əvəz edə bilməz. Eyni gülün şitilləri gətirilib Bakıda əkilsə də, nisbətən kiçik qönçəli və daha az ömürlü gül yetişdirilir. Hollandiya gülləri həm görünüşü, həm də uzunömürlü olması baxımından əvəzsizdir. Azərbaycanda isə ən çox tələbat qızıl gülə və papatyayadır. Müxtəlif rəngli papatyaların necə yetişdirilməsinə gəlincə, satıcı ağ rəngli güllərin sonradan xüsusi üsulla rəngə qoyulduğunu və mavidən narıncıya qədər hər rəngə boyamağın mümkün olduğunu bildirdi.

**Gül yetişdirməyin çox zəhmət və xərc tələb edən bir sahə olduğunu deyən sahibkar, son illərdə təbii qazın və elektrik enerjisinin satış qiymətinin artması gülçülərin gününü qara edib**: "Məhz bundan sonra bir çox sahibkar gül becərməkdən imtina ediblər. Digər çətinlik isə güllərin həm aqrotexniki qulluq tələb etməsi, həm də tez solan, dəyərdən düşən olan məhsul olmasıdır. Bəzən gül əlimizdə qalır, xarab olur. İldə 2 dəfə bayramlar zamanı satış yaxşı olur, qalan vaxtlarda isə çətinliklər yaşanır. Bu mənada gülçülük riskli sahə sayılır. İstehsalı isə daha çox xərc tələb edir. Qazın limiti ləğv olunsa bu bizə çox faydalı olardı. 100 kvadratmetrlik bir qərənfil istixanasını 3 ay ərzində yetişdirmək üçün 7 min manat sadəcə təbii qaza sərf olunur. Bundan əlavə gübrələri, dərmanları da var. Yay vaxtında təbii istiliklə güllər becərilir, ancaq bu zaman da qönçələri balaca olur. Sahibkarların əsas istəyi dövlətin bu sahəyə diqqət ayırması və gülçülər üçün təbii qazın satış qiymətlərini optimallaşdırmasıdır.

❑ **Nərgìz LİFTİYEVA,**
**Fotolar müəllìfìndìr**







YENİ MÜSAVAT
N 147 (7317) 13 iyul 2019

# “İslam Sivilizasiyası Qafqazda” beynəlxalq simpoziumu başa çatıb

## Bakıda keçirilən sayca ikinci beynəlxalq konfransda 100-dən çox məruzə dinlənilib

**Xəbər verdiyimiz kimi, iyulun 11-12-də Bakıda “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumu keçirilib. Ötən gün tədbirin başa çatması ilə əlaqədar təşkilatçılar mətbuat konfransı keçirib.**

Qeyd edək ki, Azərbaycanda sayca ikinci dəfə keçirilən beynəlxalq tədbirin təşkilatçısı Azərbaycan İlahiyyat İnstitutu (AİI), İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi (IRCICA) və AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu olub. Simpozium Qafqazda İslam sivilizasiyasının yayılması dövrünün elmi şəkildə öyrənilməsi və bu tarixin aktual problemlərinin obyektiv araşdırılması, eyni zamanda ölkəmizin uzunəsrlik tarixi keçmişə malik qarşılıqlı hörmətə əsaslanan milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühitinin dünyaya tanıtdırılması məqsədi daşıyıb.




Simpoziumda ümumilikdə, on iki ölkədən - Türkiyə, Rusiya, Gürcüstan, İran, Ukrayna, Qazaxıstan, Özbəkistan, Moldova, ABŞ, Avstraliya, Misir, Səudiyyə Ərəbistanı kimi xarici ölkə universitetlərindən Qafqazda İslam sivilizasiyası mövzusu üzrə çalışan alim, tədqiqatçı və ekspertlərin 12 paneldə 100-dən çox məruzəsi dinlənilib.

Tədbirdə Azərbaycan dili ilə yanaşı, ingilis və rus dillərinə tərcümə olunaraq dərc edilən “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumunun materialları (Tezislər)" başlıqlı kitab təqdim olunub. Qeyd olunub ki, Simpoziumun materialları da qısa zaman kəsiyində qeyd olunan dillərə tərcümə olunaraq nəşr ediləcək.

Mətbuat konfransında qeyd olunub ki, “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumu nəinki Azərbaycan, eyni zamanda, bütün region üçün əlamətdar hadisədir. Simpoziumda dəyərli alimlərin Qafqazda İslam mədəniyyəti, tarixi, dini abidələri, din təhsili mövzularında məruzələri dinlənilib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov bildirib ki, Simpoziumda 15 ölkədən 50-yə yaxın nümayəndə iştirak edir. İki günlük tədbirdə Azərbaycan multikulturalizmi, tolerantlığı, İslamın Qafqaz xalqlarının həyatında rolu müzakirə olunub. Qonaqlarımız Bakıda olduqları müddətdə mədəni-tarixi abidələrlə tanış olacaqlar. Eyni zamanda, Heydər Məscidini ziyarət edəcəklər.

Xatırladaq ki, “İslam Sivilizasiyası Qafqazda” I Beynəlxalq Simpoziumu 9-11 dekabr 1998-ci il tarixdə Bakı şəhərində keçirilib.

**“Azərbaycanda ilahiyyatçılar haqqında məlumat bankının yaradılması nəzərdə tutulur”.**

Bunu isə APA-ya açıqlamasında **Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov** bildirib.

**Rektor bildirib ki, hazırda Karyera Mərkəzinin yaradılması üzərində iş gedir**: “Ümumiyyətlə, belə bir fikrimiz var ki, Azərbaycanda ilahiyyatçılar haqqında məlumat bankı yaradılsın. Həm bizim məzunlarımız, həm Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində, həm də digər ölkələrdə təhsil alan tələbələr barədə məlumatlar bir yerə toplanılsın. Ehtiyac yarandıqca, zəruri dövlət qurumlarına həmin mütəxəssislər təqdim olunacaq. Qeyd edim ki, artıq bizə müxtəlif dövlət qurumlarından, o cümlədən hüquq-mühafizə orqanlarından müraciətlər var”.

**Rektor bildirib ki, bu günə qədər Azərbaycanda İlahiyyat fakültəsində 900-ə yaxın məzun olub:** “Xaricdə din sahəsində təhsil alıb gələn 3000-ə yaxın məzun var. Onların bir qismi Qafqaz Müsəlmanları İdarəsində və digər strukturlarda fəaliyyət göstərirlər. Məzunlarımız eyni zamanda din xadimləri kimi də fəaliyyət göstərə bilərlər. Hazırda bu tələbələrlə işləyirik. Bu tələbələrdən bəziləri İlahiyyat İnstitutunda magistratura təhsilini davam etdirirlər, az bir hissəsi isə Türkiyədə təhsil alır. Gələcəkdə də tələbələrimizin yönləndirilməsi ilə bağlı işimiz davam edəcək”.

❑ **Kənan RÖVŞƏNOĞLU, “Yeni Müsavat”**

# Müşfiq Abbasovun 240 minlik evi əlindən alındı - şok səbəb!

## “Təsəvvür edin ki, 15 dəqiqəlik qərarla sənin 15 il əziyyət çəkərək aldığın ev əlindən alınır”

**“Bu şəhərdə”nin ssenaristi Müşfiq Abbasovun 240 minlik evi əlindən alınıb. Musavat.com bildirir ki, bu barədə özü “İnstagram” səhifəsində məlumat paylaşıb. Məsələyə aydınlıq gətirmək üçün əməkdaşımız M.Abbasovla əlaqə saxlayıb. M.Abbasov başına gələnləri bu cür izah edib:**


Müşfiq Abbasov

“2013-cü ildə Həsənova Gülrux Sənan qızından ev almışam. 2016-cı ildə məni Yasamal Məhkəməsinə çağırdılar ki, bəs bu ev 2009-ci ildən məhkəmələrdədir. Belə ki, Gülrux Həsənovanın xalası Nehriban Həsənova var. Sən demə, xalasının əri həmin evi Gülruxa alıb. 2008-ci ildə M.Həsənovanın əri Fərrux Həsənov öldükdən sonra arvad bacısı qızına deyib ki, əri o evi aldığı üçün ev ona məxsusdur. Buna görə G.Həsənovanı məhkəməyə verib. 2013-cü ildə məhkəmə G.Həsənovanın xeyrinə qərar çıxardıqdan sonra o, evi mənə satıb. Bütün bu prosesdən mənim xəbərim olmayıb, yoxsa evi almazdım.

Beləliklə, evi aldıqdan sonra xala və bacıqızı arasında məhkəmə davası davam edib. M.Həsənova daha sonra evin sahibi kimi məni məhkəməyə verib və bildirib ki, evin sənədləri saxtalaşdırılaraq mənə satılıb. Lakin Yasamal Məhkəməsi mənim hüquqlarımı tanıyaraq, xeyrimə qərar çıxartdı ki, evi qanuni şəkildə aldığım üçün mənə məxsusdur. Lakin məhkəmənin qərarından iki ay keçməmiş qarşı tərəf məni Apelyasiya Məhkəməsinə verdi".

**Müşfiq Abbasov bildirib ki, məhkəmə 15 dəqiqəlik prosesdən sonra evin onun əlindən alınmasına qərar verib:**

“Təsəvvür edin ki, 15 dəqiqəlik qərarla sənin 15 il əziyyət çəkərək aldığın ev əlindən alınır. Halbuki mənim evimin alqı-satqı məsələsi notarisuda aparılıb və Dövlət Əmlak Komitəsinin verdiyi çıxarış var. Lakin Apelyasiya Məhkəməsinin qərarına görə həm notariusda aparılan alqı-satqı da, Dövlət Əmlak Komitəsinin verdiyi çıxarış da saxtadır. Bu, tamamilə absurddur. Belə çıxır ki, dövlətin rəsmi orqanlarının verdiyi sənəd bu cür sonradan saxta çıxa bilər? Bu məntiqlə hər kəsin evi saxta ola bilər”.

Müşfiq Abbasov məsələ ilə bağlı Ali Məhkəməyə və digər instansiyalara müraciət edəcəyini də bildirib:

“İnanıram ki, sonda ədalətli qərar veriləcək və dövlətin özünün verdiyi sənəd heç bir halda saxta ola bilməz deyə sübut olunacaq”.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

**Elan**

**Ağdaş şəhərində Əhmədov Əsas Abduxəlil oğluna məxsus JN-3242 saylı torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

*****

**Bak şəhəri, Nərimanov rayonu, Sabit Rəhman-4 ünvanında yaşayan Abbasov Türmən Şükür oğlunun adına olan qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**



# Qlobal istiləşmə fəlakət səviyyəsinə doğru irəliləyir

**“Hindistandakı ağır keçən isitilər bu yaxınlarda yer kürəsinin bəzi bölgələrinin həyat üçün yararsız hala gələcəyini göstərir”.**

İsveçrənin “Tages-Anzeiger” qəzetinin yazarı Yanik Viqetin xəbərində belə bir qorxulu anons verilib.

Onun yazdığına görə, Hindistanda mart atyında başlayan və əhali üçün böyük problemlər yaradan isti havalar musson yağışlarının başlaması ilə tədricən düşür. Lakin son illərdə hərarətli havanın tezliyi, intensivliyi və davamlılığı getdikcə artıb. Əgər 2010-cu ildə 21 istilik dalğası müşahidə olunurdusa, 2018-ci ildə isə artıq 484 hava dalğası qeydə alınıb. Bütün bu dövr ərzində ən az 5 min insan dünyasını dəyişib.

Bu yay isə istilik qurbanlarının sayı yüzlərlə ölçülür. Paytaxt Nyu-Dehli şəhərinin qərbində Çuru şəhərində termometr 50,6 dərəcə göstərir. Bu, Hindistan tarxində rekord sayılır.

Metereoloqlar isə situasiyanın daha da pisləşəcəyini, istilik dalğalarının isə artıq ayrı-ayrı bölgələri deyil, bütün ölkəni bürüyəcəyini söyləyir. Massaçusstets Texnologiya İnstitutunun (MİT) ekspertləri isə indidən həyəcan təbili çalırlar. Onlar Hindistanın bəzi regionlarında hərarətin insan həyatı üçün yararsız hala düşəcəyi qənaətinə gəliblər.

“Yaşamaq həddi hava temperaturu və rütubətlə birlikdə ölçülən metodla müəyyən edilir. Temperatur 35 dərəcəyə çatdıqda insan öz bədəni ilə artıq onu soyuda bilmir. Fiziki formasından asılı olmayaraq 6 saatdan artıq belə havada qalan şəxs ölə bilər.

MİT araşdırmaçıları bununla bağlı iki ssenarini önə sürürlər. Birinci halda əsrin sonuna qədər Yer kürəsində temperaturun səviyyəsi havaya atılan zəhərli tullantıların təsiri ilə 4,5 dərəcə, ikinci halda isə 2,25 dərəcə yüksələcək.

Hətta ən optimist ssenaridə belə bir çox insan üçün bölgədə yaşamaq ağırlaşacaq.

Xüsusilə bu tendensiya Hindistanın şimal-şərq və şərq vilayətlərində müşahidə olunacaq. Bundan başqa, qonşu Banqladeş, Qanqa çayının münbit dərəsi, habelə Cənubi Asiyanın digər bölgələri, o cümlədən Şri-Lankanın şimalı və Pakistanın şərqi həyat üçün yararlı olmaya bilr.

Cəmi bir neçə on il sonra milyardlarla insanın həyatı təhlükəyə girəcək", - deyə məqalənin yekununda bildirilir.

❑ **Musavat.com**

# Müdirinin otağına qumbara atan şəxs hakim qarşısında

## İşdən çıxarılan müavin direktordan vəzifəsinə bərpasını tələb edib, lakin...

**Müdirini öldürməyə cəhddə ittiham edilən şəxs hakim qarşısına çıxarılıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində adam öldürməyə cəhddə təqsirli bilinən Şirin Astanovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.

Hakim Cavid Hüseynovun sədrliyi ilə keçirilən məhkəmə iclasında şahidlər dindirilib.

Şahid Nailə İbrahimova ifadə verərək "Azkompozit" MMC şirkətinin mühasibi olduğunu deyib.

O bildirib ki, Şirin Astanov işdən çıxmadan öncə onunla da görüşüb: "İşdən çıxma ərizəsini mənə təqdim edib. Özü öz ərizəsi ilə işdən çıxıb. Heç bir narazılıq yox idi".

Hadisə günü baş verənləri danışan Nailə İbrahimova yaşananları müəssisənin rəhbərinin köməkçisi Aynur xanımdan eşitdiyini deyib:

"Aynur dedi ki, Şirin dayı ofisə gəlib, direktorla görüşmək



istədiyini deyib. Amma direktorun vaxtı olmadığı üçün onu geri qaytarıb. Şirin dayı bir neçə dəqiqədən sonra qayıdaraq Aynuru itələyərək otağa keçib. Aynur bunları danışanda əsirdi".

Hakim şahiddən soruşub ki, Aynur ona direktorla Şirin Astanovun əlbəyaxa davasından danışıbmı.

Nailə İbrahimova suala "yox" cavabını verib. Hakim isə xatırladıb ki, Nailə İbrahimova istintaqda fərqli danışıb.

"Demisiniz ki, Aynur davanı görüb. Görüb ki, müdir Şirin Astanovu yerə yıxaraq üstündə oturub. Əllərindən tutaraq yerə çırpıb. Bu zaman Şirin Astanovun əlindən qumbara otağa düşüb"- deyə hakim xatırlatma edib.

Nailə İbrahimova istintaqda belə bir ifadə vermədiyini deyib.

Hakim əlavə edib ki, Aynur da istintaqda dediklərini məhkəmədə təkzib edib.

Prosesdə hadisənin əsas şahidlərindən Rəsul Məmmədov da ifadə verib.

Müəssisədə mühəndis işlədiyini deyən Rəsul Məmmədov deyib ki, direktorun otağından səs gələndə otaqdan çıxaraq ora gedib:

"Aynurun səsinə qaçdım. Otağa keçəndə gördüm ki, Şirin dayı yerdədir. Rəsul müəllim də onun sinəsində oturub. Onları sakitləşdirmək istəyirdik. Bu vaxt qumbara ayağımın altında düşdü. Özümü itirdim, bir anlıq donduq. Qumbaranı vurub ayağımın altından uzaqlaşdırdılar. Mən dedim, bəlkə indi partlayacaq. Hamımız birlikdə gedəcəyik. Qışqırdım ki, gəlin buradan çıxaq".

Suallara cavab verən Rəsul Məmmədov deyib ki, təxminən yarım saat sonra polis əməkdaşları gəlib. Şirin Astanov polisə təhvil verilib, ANAMA da qumbaranı zərərsizləşdirmək üçün müəssisəyə gəlib.

Şirin Astanov şahiddən soruşub ki, üzünün qan olmasının səbəbi nə idi?

Şahid deyib ki, otaqda qarmaqarışıqlıq olduğu üçün Şirin Astanovu kimin vurduğunu görməyib.

Rəsul Məmmədov əlavə edib ki, Şirin Astanov hadisə vaxtı əsəbi olub.

Digər şahid müəssisənin xammal anbarının rəisi Ramiz Əliyev olub. O da Rəsul Məmmədovla eyni məzmunlu ifadə verib.

Şirin Astanovun vəkili məhkəməyə müraciət edərək ANAMA işlərinin şahid qismində dindirilməsini istəyib. Vəkil deyib ki, qumbara Şirin Astanova məxsus olub və sadəcə təlim məqsədli olub.

"Amma cinayət işi materiallarından görünür ki, qumbara ANAMA tərəfindən zərərsizləşdirilib, yeni partladılıb. Ancaq ANAMA işçilərindən heç kim şahid kimi dindirilməyib. Vəsatət verərək həmin şəxslərin dindirilməsini istəyirik"- deyə vəkil bildirib.

Məhkəmə vəsatəti təmin edib.

Xatırladaq ki, hadisə bu ilin martında Sumqayıtda yerləşən "Azkompozit" MMC şirkətində baş verib.

Şirkətin təsərrüfat işləri üzrə müdiri vəzifəsində işləmiş Şirin Astanov direktor Rəsul Baxşəliyevin kabinetinə gəlib. Onda əvvəlki işinə bərpa olunmasını tələb edib. Tərəflər arasında mübahisə yaranıb.

Daha sonra Şirin Astanov özü ilə gətirdiyi qumbaranın qoruyucusunu çıxarıb və direktorun otağına atıb. Amma qumbarada olan texniki nasazlıqdan partlayış baş verməyib.

**Ona qarşı Cinayət Məcəlləsinin 29, 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürməyə cəhd) maddəsi ilə ittiham irəli sürülüb.**

**❑ İlkin MURADOV,**
**Musavat.com**

## Bakıda silahlı şəxslər saxlanılıb





**Sabunçu Rayon Polis İdarəsi 13 və 15-ci Polis Bölməsi əməkdaşları tərəfindən həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi, üzərində odlu silah-sursat saxlayan şəxslərə qarşı uğurlu əməliyyat tədbiri həyata keçirilib.**

Bu barədə Musavat.com-a DİN-in mətbuat xidmətindən məlumat verilib.

Daxil olan məlumat əsasında Bakıxanov qəsəbəsində əvvəllər məhkum olunmuş paytaxt sakini Asim Hüseynov saxlanılıb. Onun üzərində şəxsi axtarış aparılan zaman 11.5 qram narkotik vasitə heroin, habelə idarə etdiyi "Daewoo" markalı avtomobildən 1 ədəd "Makarov" markalı tapança, 1 ədəd patron darağı və 8 ədəd patron, həcminin 1 ədəd bıçaq və 1 ədəd taxta dəyənək aşkar edilərək götürülüb. Saxlanılan şəxs ifadəsində aşkar edilən əşyaların ona məxsus olduğunu etiraf edib.

Sabunçu Rayon Polis İdarəsi 15-ci Polis Bölməsi əməkdaşları tərəfindən keçirilən əməliyyat zamanı isə əvvəllər məhkum olunmuş paytaxt sakini Vasif Abdulov saxlanılıb. Onun üzərində şəxsi axtarış aparılan zaman 0,900 qram heroin aşkar edilib. Əməliyyat tədbirlərinin davamı olaraq V.Abdulovun idarə etdiyi "Mitsubishi" markalı avtomobildən əlavə olaraq 31,119 qram heroin, 29,450 qram metamfetamin, 1 ədəd "Toz-16" markalı ov tüfəngi və 1 ədəd xəncər aşkar edilərək götürülüb.

Faktlarla bağlı toplanan materiallar əsasında Sabunçu Rayon Polis İdarəsinin İstintaq Şöbəsində cinayət işləri başlanılıb, araşdırmalar davam etdirilir.

**❑ Musavat.com**

## Qeyri-sabit hava şəraiti iyulun 14-ü gündüzədək davam edəcək

**Azərbaycanda müşahidə olunan faktiki hava açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, iyulun 12-də axşam qərb rayonlarından başlayaraq küləyin güclənməsi müşahidə edilir.

Küləyin maksimal sürəti Gəncədə saat 16:08-16:20 radələrində 23-28 m/s, Tovuzda 26 m/s, Ağstafada 16-18 m/s, Şəmkirdə qərb küləyi 22 m/s-yə çatıb. Gədəbəydə 16:02-16:03 radələrində diametri 11 mm olan dolu qeydə alınıb.

Ölkə ərazisində qeyri-sabit hava şəraiti iyulun 14-ü gündüzədək davam edəcək.



## Azərbaycanda cəza çəkmiş gürcü "qanuni oğru" "Avto Boksyor" İtaliyada öldü

### Aftandil Xetsuriani İtaliyanın Milan şəhərində vəfat edib

**Avropa.info xəbər verir ki, ölüm səbəbi kimi onkoloji xəstəlik göstərilir. Avtandil Xetsuriani 1 iyun 1971-ci ildə Gürcüstanın Kutaisi şəhərində anadan olub. O, törətdiyi ağır cinayətlərə görə, o cümlədən maşın qaçırmaq, silah saxlamaq, qarət, həmçinin DİN-in İmereti bölgəsi üzrə sədri general-mayor Elquci Butsxrikidzeni qaçırmağa görə məhkum olunub. 2000-ci ildə "oğru" adı alıb.**

Gürcüstan, Ukrayna və Azərbaycanda cinayətkar qruplaşmalara başçılıq edib. 2005-də Bakıya gələn "Avto Boksyor" cinayətkar qrupları başına toplayaraq evlərin qarəti ilə məşğul olub.

2006-cı ilin fevralında Bakıda saxlanılıb. Onun üzərində 4 patron, 10 qram heroin tapılıb. Məhkəmədə Aftandil Xetsurianinin ev qarətləri ilə əlaqəsi sübut olunmadı, silah və narkotik saxlamağa görə ona iki il həbs verdilər. O, 1 saylı cəzaçəkmə müəssisəsində cəzasını çəkib.

2009-2012-ci illərdə heroin saxlamaq ittihamı ilə Rusiyada həbs çəkib. 2012-ci ilin 25 mayında Gürcüstana deportasiya olunub. Bu tarixdən sonra gürcü "oğru"nun bioqrafiyası qaranlıq qalır.

Ölümündən qabaq onun Milanda ağır formada xəstə olduğu bildirilirdi. Yaxınları onu Fransaya müalicəyə göndərmək istəsə də, Fransa onu qəbul etməyib.



## Özünü türk iş adamı kimi qələmə verərək dələduzluq edən Salyan sakini saxlanıldı

**Bakıda özünü türk iş adamı kimi qələmə verərək dələduzluq yolu ilə insanları aldadan və zərərçəkənlərin qiymətli əşyalarını ələ keçirən şəxs saxlanılıb.**

Bu barədə musavat.com-a DİN-in mətbuat xidmətindən məlumat verilib.

Bu barədə Nərimanov Rayon Polis İdarəsi 18-ci Polis Şöbəsinə müraciət edən zərərçəkən bir müddət əvvəl özünü Hakan kimi təqdim edən şəxslə tanış olduğunu və həmin şəxsin onun mobil telefonunu oğurladığını bildirib.

Şöbə əməkdaşları tərəfindən keçirilən əməliyyat zamanı qeyd dilən cinayəti törətməkdə şübhəli bilinən Salyan rayon sakini Məmmədəli Əhmədov saxlanılıb. O, ifadəsində özünü türk iş adamı kini təqdim etdiyini və zərərçəkənlə guya fermasını almaq adı ilə görüşdüyünü bu zaman onun mobil telefonunu oğurladığını etiraf edib.

Qeyd edilən faktla bağlı Nərimanov RPİ-nin 18-ci Polis Şöbəsində araşdırmalar davam etdirilir.

Polis əməkdaşları M.Əhmədovun digər analoji cinayətlərdə iştirak etdiyini də istisna etmirlər. Onun əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə Daxili işlər Nazirliyinin "102" Zəng Mərkəzinə, Nərimanov RPİ və ya 18-ci PŞ-nə müraciət edə bilərlər.

**❑ Musavat.com**

YENİ MÜSAVAT

Son səhifə

N 147 (7317) 13 iyul 2019



## Uşaq 6 metrlik quyuya düşdü və sağ qaldı

**İngiltərənin Milli Park Distrikdə bir uşaq 6 metrlik quyuya yuvarlanıb və oradan sağ çıxıb. Bu barədə "Daily Mail" nəşri xəbər verib.**

Məlumata görə, ər-arvad Luiza və Mark Taketta öz uşaqları ilə Xatersec kəndinin yaxınlığında yerləşən parkda gəzirmişlər. Bir yaşlı Ella, 3 yaşlı Sem və 6 yaşlı Oskar birgə oynayan zaman oğlanlar qabağa qaçıb. Bu zaman onlardan biri yerin dərinliyinə düşüb. "Biz ərimlə panikaya düşüb, bir-birimizə baxdıq" - 36 yaşlı ana hadisəni belə xatırlayır. Valideynlər qabağa qaçanda görüblər ki, uşaq eni 40 santimetr, dərinliyi isə 6 metr olan quyuya düşüb.

40 yaşlı Mark Semi quyudan çıxarıb, Luiza isə xilasedici briqadanı çağırıb. Uşaq qan içində ağlayırmış. Atası uşağı ən yaxın yola çıxarıb və 15 dəqiqə keçməmiş onlara təcili yardım maşını yaxınlaşıb. Xəstəni operativ şəkildə uşaq xəstəxanasına çatdırıblar. Orada 10-a yaxın tibb işçisi onun həyatını xilas edib. Həkimlərin sözlərinə görə, 8 saatdan sonra onlar xəstənin durumunu stabil vəziyyətə qaytara biliblər.

Yıxılma nəticəsində Sem ciddi baş-beyin zədəsi alıb və qolu qırılıb. O, tezliklə yaxşılaşmağa doğru gedib və danışmağa başlayıb: "O, özünü əvvəlki kimi aparır. Bu da valideyn olaraq bizim üçün xoşbəxtlikdir".

# Uşaq ana südü içirsə, onda susuzluq yaranır

**Körpələrin minimum 6 aya qədər ana südü ilə qidalanması həkimlərin hər zaman səsləndirdiyi tövsiyələrdəndir. Britaniya və İrlandiya həkimləri kifayət qədər ana südü içməyən körpələrin xəstəlikləri ilə bağlı araşdırma aparıblar. Amma araşdırma zamanı məlum olub ki, ana südü uşaqda ciddi surətdə dehidrasiyaya (susuzluğa) səbəb olur. Hazırda xəstəxanalarda bununla bağlı statistik məlumatlar toplanır. Kəskin hipernatriemik susuzluq nadir, lakin ölümcül bir hal kimi xarakterizə olunur.**



Güman edilir ki, südvermə populyarlaşdıqca belə halların sayı arta bilər. Lokal tədqiqatlara əsasən, bəzi xəstəxanalara həftədə bir dəfə körpələr dehidrasiyanın mülayim və ya kəskin forması ilə qəbul edilir. Lakin bu problemlə ciddi məşğul olmaq üçün tibb icmasına daha çox məlumat lazımdır. Hazırda Britaniya Tibb Departamenti qadınlara ilk 6 ay ərzində körpələri yalnız ana südü ilə qidalandırmağı məsləhət görsə də, problemi hərtərəfli araşdırır.

# Ana 11 yaşlı qızına maşın sürməyə icazə verib



**ABŞ-ın Texas ştatındakı Pasadena şəhərində yerli polis departament6inin əməkdaşları 11 yaşlı qızı avtomobilin sürətini artırdığı üçün saxlayıblar. Bu barədə 12 iyulda "Associated Press" xəbər verib. Adı açıqlanmayan qız deyib ki, anası ona sükan arxasında oturmağa icazə verib - baxmayaraq ki, birinci dəfə o, maşını yanında böyüklər olmadan, 10 yaşlı qardaşı salonda oturarkən idarə edib. O, Hyustonda yerləşən evinə doğru gedib. Avtomobil həvəskarı sürət həddi maksimum saatda 56 kilometr olan ərazidə sürəti 79-a qədər artırıb. Məhz bu məqam yol polislərinin diqqətini cəlb edib. Qızın anası Mariya Dexesus Lopesə qarşı iki uşağın həyatını təhlükə altında qoyduğu üçün ittiham irəli sürülüb. Qadını 3 min dollarlıq girov müqabilində evə buraxıblar. Sözügedən iş üzrə məhkəmə baxışı 17 iyula təyin edilib.**

Bu ilin iyul ayında məlum olmuşdu ki, Çinin Quançjou şəhərində 12 yaşlı oğlan avtobus oğurlayıb. Səfər 40 dəqiqə davam edib. Həmin müddət ərzində yeniyetmə 10 kilometrə qədər məsafə qət edib.

## 25 il əvvəl itən çantasını tapıb gətirdilər

**ABŞ-ın Cənubi Karolina ştatının sakini Eypril Bolta 25 il əvvəl itirdiyi çantanı geri qaytarıblar. Bu barədə ABC News xəbər verir. Çantanı balıq tutan vaxt təsadüfən 11 yaşlı Brodi Bruks sudan çıxarıb. Uşağın yanındakı qohumu isə onun bu tapıntısını "xəzinə" adlandırıb: "Mən bu çayda illərdir balıq tuturam. Amma ilk dəfədir ki, bunun kimi bir halla qarşılaşıram". Bunu da Ben Meyers deyib.**

Bolt 1992-ci ildə ailəsi ilə təbiət qoynuna gəzməyə çıxanda çantasını da qayıqda qoyub. 49 yaşlı qadının sözlərinə görə, kimsə çantanın içindən pulları çıxarandan sonra onu da çaya tullayıb. Qadın çantanın içindəki kosmetika çantasını taparaq çox sevinib.

Buna qədər də tarixdə keçmişdə itən əşyaların 20-30 il sonra sahiblərinə qaytarılması barədə faktlar yer alıb. Polislər 20-25 il əvvəl insanların itmiş pulunu, itmiş xatirə əşyasını tapıb onların özünə qaytarıblar.

## Bunları bilirsinizmi?

*** Pişiklər 100 dəyişik səs, itlər isə 10 səs çıxarda bilərlər.**

*** Şokoladın itləri öldürdüyü doğrudur. Onların ürəyinə və sinir sisteminə zərər verər, yarım kilo şokolad kiçik bir iti öldürə bilər.**

*** Dünyada adambaşına düşən qarışqa sayı 1 milyondur.**

*** Hər gün doğulan uşaqların orta hesabla 12-si səhv ana-ataya verilməkdədir.**

*** Atlar bir ay ayaq üstə qala bilirlər.**

*** Dünyanın ən böyük heyvanı mavi balinadır. Eyni zamanda heyvanlar aləminin ən sürətli böyüyən heyvanıdır. Kilosu 22 ayda 26 tona qədər çatar.**

*** Bir inək həyatı boyunca təxminən 200.000 stəkan süd çıxarar.**

*** Las Vegasdakı qumarxanaların heç birində saat yoxdur.**

*** Pinqvin üzə bilən, amma uça bilməyən tək quşdur.**

*** Bir siçan bir dəvəyə nisbətdə daha uzun müddət susuzluğa dözə bilər.**

*** Əl dırnaqları ayaq dırnaqlarına nisbətən 4 dəfə daha sürətli uzanır.**

*** Kenqurular geri-geri gedə bilməzlər.**

*** Corc Vaşinqton evinin bağçasında marixuana yetişdirərmiş.**

*** Ketçup 1830-cu illərdə dərman olaraq satılardı.**

*** Bir köpəkbalığı 100 milyon damla dəniz suyu içindəki bir damla qanı hiss edə bilər.**

*** Kağız pul sanıldığı kimi kağızdan deyil pambıqdan hazırlanır.**

*** Kirpilər suda batmaz.**

*** 2.600 dəyişik cins qurbağa var.**

*** İlanlar eşidə bilməz.**

*** Zürafələr üzə bilməz.**

*** Evinizdəki toz parçacıqlarının böyük əksəriyyəti ölmüş dəri toxumasıdır.**

*** İnsan mədəsi 2 həftədən bir iç pərdəsini yeniləmək məcburiyyətindədir.**

*** Bayquş, mavi rəngi görə bilən tək quşdur.**

*** Venera saat istiqamətində dönən tək planetdir.**

*** Son 4000 il içərisində hər hansı yeni heyvan əhliləşdirilməyib.**

*** Delfinlər gözləri açıq yatır.**

## Maşınına ilan girdi... polisə müraciət etdi



**ABŞ-ın Men ştatının Obern şəhər sakini maşınının salonuna ilan girdiyini görən kimi polisə zəng edib. Bu barədə yerli polis departamentinin Facebook səhifəsində məlumat verilib.**

Dispetçer gələn müraciətlə bağlı polis işçisi Trevis Barnisə xəbər verib. Sürücü polislərdən maşınına girən ilanı çıxarmalarını istəyib. Polisə zəng edən sürücü bildirib ki, o, ilanın maşının hansısa hissəsini məhv etməsindən daha çox narahat olub, nəinki ona toxunmasından.

Polis bölməsinin yaydığı məlumatda bildirilir ki, Barnisin çağırışına əsasən, hadisə yerinə gələn polis ilanı yaxalayaraq onu yerə buraxıb. İlana heç bir zədə dəyməyib.

**Bundan öncə Kaliforniya polisi qayığa girən ilanı oradan çıxarmışdı.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.190